RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 185 (9640) 29 avqust 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# COP29-a hazırlıq Prezident İlham Əliyevin diqqət mərkəzindədir

## "Sea Breeze" istirahət mərkəzində LANDAU Məktəbinin və "The Grand" apart hotelinin açılışı olub



"Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov Prezident İlham Əliyevə görülən işlər, o cümlədən "Sea Breeze"in əsas layihələri - 231 şagird üçün nəzərdə tutulmuş "LANDAU School" Təhsil Kompleksinin "Sea Breeze"dəki məktəbi və 450 şagird üçün nəzərdə tutulmuş "SABAH.school" barədə məlumat verdi.

Bildirildi ki, məktəb binalarında kompüter sinifləri, psixoloq kabineti, laboratoriyalar, açıq və qapalı idman meydançaları var. Təlim Britaniya kurikulumuna uyğun olaraq ingilis dilində aparılır. LANDAU Məktəb Kompleksinin ərazisində orta ümumi təhsillə yanaşı, məktəbəqədər təhsil üçün ayrıca bina da var. Ümumilikdə, təhsil kompleksi 1100-dən çox şagird üçün nəzərdə tutulub.

Ərazidəki ən böyük apart hotel - "The Grand" da istifadəyə verildi.

Diqqətə çatdırıldı ki, bura ilboyu yaşamaq və ya kirayə vermək üçün nəzərdə tutulmuş 224 mənzil və 3 penthausdan ibarətdir. Təmirli 100 mənzil əşyalarla birlikdə artıq satılıb. Apart hotelin ərazisində iki hovuz, üç restoran, konfrans zalı, butiklər, SPA mərkəzi və qəbul xidməti fəaliyyət göstərir.

Qeyd olundu ki, ekoloji cəhətdən təmiz, müasir və memarlıq həlləri baxımından texnoloji layihə olan "Sea Breeze" gələcəyin şəhəri kimi inkişaf edir. Nəhəng layner formasında ilk mənzillərdən ibarət flaqman daşınmaz əmlak layihəsi olan "Caspian Dream Liner" süni adada tikiləcək. Bu nadir memarlıq quruluşu sayəsində "Sea Breeze" qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək. İrimiqyaslı layihə fondunun hazırlanması üzərində bir neçə memarlıq bürosu işləyir, o cümlədən dünyaşöhrətli memarlar cəlb olunur. Ekspertlər kurort şəhərini bu gün dünyada öz ərazisində bu qədər çoxlu sayda daşınmaz əmlakı birləşdirən yeganə layihə adlandırırlar.

"Sea Breeze"in beynəlxalq tərəfdaşları arasında nüfuzlu, qlobal hotel şəbəkələri var ki, onlar yaxın illərdə sahildə hotel komplekslərİ açmağı planlaşdırırlar.

İlboyu yaşamaq, rahatlıq və yaxşı istirahət üçün hər cür şərait yaradılan "Sea Breeze"də beynəlxalq məktəb və LANDAU uşaq bağçası kimi təhsil müəssisələri, tibb ocaqları, biznes mərkəzi və tibbi-sağlamlıq kompleksi tikinti mərhələsindədir. Həmçinin ərazidə həm uşaqlar, həm də böyüklər üçün ustad dərsləri, mühazirələr və praktik məşğələlərin keçirildiyi incəsənət mərkəzi yerləşir.

→ 2

# Vladimir Putin İlham Əliyevə zəng edib

## Dövlət başçıları nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparıblar



Avqustun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Neft layihələri: əsas şərtlərdən biri ətraf mühitə ziyan vurmamaqdır

"Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin həyata keçirilməsinin hər bir mərhələsində ƏMSSTQ qarşıda ümdə məsələ kimi dayanıb. Bu baxımdan ən maraqlı məqamlardan biri Səngəçal terminalının genişləndirilməsi zamanı müşahidə olundu. Tikinti işləri prosesində bir sıra yerli və qlobaləhəmiyyətli canlı növləri təsirə məruz qala bilərdi. "Qırmızı kitab"a düşmüş Aralıq dənizi tısbağaları xüsusilə həssas idi. Ona görə də tısbağalar qış yuxusunda ikən ayrı-ayrı qutulara yığıldı. Terminalın ərazisində qeyri-adi bir ferma - tısbağa ferması yaradıldı. Beləliklə, bu canlılar təhlükədən qorundu, böyüdü, artdı... Fürsətdən istifadə edib tısbağalara alimlər, mütəxəssislər baş çəkdilər, onları müşahidə edərək yeni bilgilər qazandılar. Məktəblilər ekskursiyaya gələrək maraq dünyalarını zənginləşdirdilər... "Aralıq dənizi tısbağaların müdafiəsi və artırılması proqramı" uğurla başa çatdırıldı.

Yeri gəlmişkən qeyd edək ki, ümumiyyətlə, AÇG-nin yüksək texniki təhlükəsizlik nailiyyətləri var. Bu, ətraf mühitə məsuliyyətlə yanaşan bir layihə kimi öz təsdiqini tapıb. Təkcə bir neçə faktı xatırlatmaq kifayətdir. Məsələn, layihənin əvvəlindən 2021-ci ilin sonuna qədər AÇG çərçivəsində 140 Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi, dəniz, quru və sahilyanı ərazilərdə 266 monitorinq tədqiqatları aparılıb.

Ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətinin SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi) qaydaları da olduqca ciddidir. "Hər kəs evindən işə sağ-salamat gəldiyi kimi, beləcə də geri dönməlidir!" Bu, sözügedən layihələrdə işləyənlər üçün bir şüara çevrilib. Onların hər biri özünü intizamı, məsuliyyəti, keyfiyyətli işi ilə doğruldur.



→ 9

# Qanunvericilik sistemində yeni mərhələ başlayır

## Parlament seçkiləri ölkəmizin siyasi tarixində dönüş yaradacaq

İlk dəfə ölkəmizin bütün suveren ərazilərində keçirilməklə əlamətdar ictimai-siyasi hadisəyə çevrilən Milli Məclisə seçkilərdə də müxtəlif metod və vasitələrdən istifadə edilməklə şəffaflığın yüksək səviyyədə təminatına xüsusi diqqət yetirilib. Belə ki, 16 ildir müvəffəqiyyətlə reallaşdırılan və səmərəliliyi ilə öz təsdiqini tapmış veb-kamera layihəsi qarşıdan gələn seçkilərdə də davam etdiriləcək.

Seçki günü - sentyabrın 1-də səsvermə məntəqələrində proseslərin tamamilə müşahidə edilməsi məqsədilə 1000 seçki məntəqəsində texniki parametrləri daha da gücləndirilərək təkmilləşdirilmiş və yüksək görüntü effektinə malik veb-kamera quraşdırılıb. İnternet istifadəçiləri seçki günü istər ölkə daxilindən, istərsə də ölkə hüdudlarından kənardan Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olmaqla, heç bir qeydiyyat tələb edilmədən bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik olacaqlar.

→ 5

# Niderlandın Azərbaycan "canfəşanlığı"

Niderland dövləti və onun siyasi dairələri xristian və erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycan torpaqlarının işğal edilməsi faktını heç vaxt dilə gətirməyiblər. Bir dəfə də olsun Ermənistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyə çağırmayıblar. Demokratiya və insan hüquqlarından dəm vuran Niderland rəsmiləri Ermənistanın işğalı nəticəsində yüz minlərlə azərbaycanlının yaşamaq və əmlak hüquqlarından məhrum olunmalarını heç vaxt yada salmayıblar.

Bununla belə, hər addımda xristian və erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycanı qərəzli şəkildə tənqid etmək üçün fürsət axtarıblar. Avropa parlamentində ölkəmiz əleyhinə qətnamələrin qəbulunda Niderland parlamentariləri xüsusi canfəşanlıq göstəriblər.

→ 6

# Paytaxtın ən hündür yaşıl məkanı



Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün görülən işlərin miqyası ilbəil daha da artırılır. Son illərdə şəhərdə aparılan yaşıllaşdırma işləri, yeni parkların, xiyabanların, istirahət güşələrinin salınması genişləndirilir, mövcud olanlarda isə yenidənqurma, abadlıq işləri görülərək yenidən paytaxt sakinlərinin və qonaqların istifadəsinə verilir.

Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.

→ 8

# Koçaryan Paşinyana qarşı çevrilişə hazırlaşır

Belə görünür ki, qarşıdakı ayda ölkədə ictimai-siyasi gərginlik daha da artacaq. Çünki keşiş Baqrat Qalstanyanın planlaşdırdığı etiraz aksiyaları fonunda vətəndaş müharibəsinə hazırlıqlar nəzərlərdən yayınmır. Vəziyyəti gərginləşdirən başqa bir səbəb isə Paşinyana qarşı olan separatçıların bir qisminin sabiq prezident Robert Koçaryanın ətrafında birləşməsi, sonuncunun isə yenidən hakimiyyətə iddialı olmasıdır.

"4rd.am" nəşrinin yazdığına görə, ölkənin əsas müxalifət partiyasının - Hayastan fraksiyasının deputatı Kristine Vartanyan bildirib ki, təşkilat keşiş Baqrat Qalstanyanın antihökumət hərəkatına sadiq qalır. Keçmiş prezident Robert Koçaryanın Hayastan fraksiyası Qalstanyanın planlaşdırdığı etiraz aksiyalarını dəstəkləyəcək.

→ 12

# COP29-a hazırlıq Prezident İlham Əliyevin diqqət mərkəzindədir

## "Sea Breeze" istirahət mərkəzində LANDAU Məktəbinin və "The Grand" apart hotelinin açılışı olub

**Avqustun 28-də Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində yaradılan "LANDAU School" Təhsil Kompleksinin məktəbinin və "The Grand" apart hotelinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

"Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov Prezident İlham Əliyevə görülən işlər, o cümlədən "Sea Breeze"in əsas layihələri - 231 şagird üçün nəzərdə tutulmuş "LANDAU School" Təhsil Kompleksinin "Sea Breeze"dəki məktəbi və 450 şagird üçün nəzərdə tutulmuş "SABAH.school" barədə məlumat verdi.

Bildirildi ki, məktəb binalarında kompüter sinifləri, psixoloq kabineti, laboratoriyalar, açıq və qapalı idman meydançaları var. Təlim Britaniya kurikulumuna uyğun olaraq ingilis dilində aparılır. LANDAU Məktəb Kompleksinin ərazisində orta ümumi təhsillə yanaşı, məktəbəqədər təhsil üçün ayrıca bina da var. Ümumilikdə, təhsil kompleksi 1100-dən çox şagird üçün nəzərdə tutulub.

Ərazidəki ən böyük apart hotel - "The Grand" da istifadəyə verildi.

Diqqətə çatdırıldı ki, bura ilboyu yaşamaq və ya kirayə vermək üçün nəzərdə tutulmuş 224 mənzil və 3 penthausdan ibarətdir. Təmirli 100 mənzil əşyalarla birlikdə artıq satılıb. Apart hotelin ərazisində iki hovuz, üç restoran, konfrans zalı, butiklər, SPA mərkəzi və qəbul xidməti fəaliyyət göstərir.

Qeyd olundu ki, ekoloji cəhətdən təmiz, müasir və memarlıq həlləri baxımından texnoloji layihə olan "Sea Breeze" gələcəyin şəhəri kimi inkişaf edir. Nəhəng layner formasında ilk mənzillərdən ibarət flaqman daşınmaz əmlak layihəsi olan "Caspian Dream Liner" süni adada tikiləcək. Bu nadir memarlıq quruluşu sayəsində "Sea Breeze" qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək. İrimiqyaslı layihə fondunun hazırlanması üzərində bir neçə memarlıq bürosu işləyir, o cümlədən dünyaşöhrətli memarlar cəlb olunur. Ekspertlər kurort şəhərini bu gün dünyada öz ərazisində bu qədər çoxlu sayda daşınmaz əmlakı birləşdirən yeganə layihə adlandırırlar.

"Sea Breeze"in beynəlxalq tərəfdaşları arasında nüfuzlu, qlobal hotel şəbəkələri var ki, onlar yaxın illərdə sahildə hotel kompleksləri açmağı planlaşdırırlar.

İlboyu yaşamaq, rahatlıq və yaxşı istirahət üçün hər cür şərait yaradılan "Sea Breeze"də beynəlxalq məktəb və LANDAU uşaq bağçası kimi təhsil müəssisələri, tibb ocaqları, biznes mərkəzi və tibbi-sağlamlıq kompleksi tikinti mərhələsindədir. Həmçinin ərazidə həm uşaqlar, həm də böyüklər üçün ustad dərsləri, mühazirələr və praktik məşğələlərin keçirildiyi incəsənət mərkəzi yerləşir.

Qeyd edək ki, "Sea Breeze" kurort şəhəri Xəzər dənizinin sahilində, Bakının mərkəzindən 30 dəqiqəlik məsafədə yerləşir. 500 hektar sahədə artıq 1,5 milyon kvadratmetrdən çox kommersiya obyekti və mənzillərdən ibarət daşınmaz əmlak satılıb və istifadəyə verilib. İstirahət zonaları, parklar və çimərlik üçün 150 hektardan çox ərazi ayrılıb. Bu gün daha 1,5 milyon kvadratmetr sahə reallaşdırma mərhələsindədir və yaxın vaxtlarda daha 2 milyon kvadratmetr sahənin tikintisinə başlanılacaq. Üç il ərzində layihənin ümumi sahəsi 5 milyon kvadratmetrdən çox təşkil edəcək və 100 min daşınmaz əmlak obyekti tikilib istifadəyə veriləcək. Sakinlərin və turistlərin ümumi sayı 300 min nəfərə çatacaq, iş yerlərinin sayı isə 20 minə qədər artacaq. Hazırda burada 6560 nəfər işlə təmin olunub. Layihəyə qoyulan investisiyalar 7 milyard dollar təşkil edir.

Cari yay mövsümündə akvapark, lunapark və sirk, həmçinin kurort şəhərciyinin yaxınlığında yeni yaradılan pulsuz çimərlik zonası da daxil olmaqla, yeni çimərlik zonaları açılıb. Həmçinin ərazidə 1 milyona yaxın bitki və ağac əkilib. Hazırda yaşıllıqların sahəsi 150 hektara çatır.

Bu ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Sea Breeze" landşaft parkının salınması təşkil olunacaq - tədbirin qonaqları, Azərbaycanın və beynəlxalq şirkətlərin rəhbərləri, siyasətçilər və mədəniyyət xadimləri ağacların əkilməsində iştirak edəcəklər.











## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 380    QƏRAR    Bakı şəhəri, 27 avqust 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli 2459 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 334 nömrəli və 23 iyul tarixli 354 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci hissəyə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"8-3/ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası".

2. 14-cü hissənin dördüncü abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Avqustun 28-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın avqustun 27-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin də iştirakı ilə Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

İclasın sonunda həmçinin cari məsələlərə baxılıb.

## Üçtərəfli işçi qrup Azərbaycandan Naxçıvana yolun çəkilməsini müzakirə edir

**"Şimal-Cənub" nəqliyyat dəhlizinə gəldikdə, əsas iş Azərbaycan və İranla təmasda qərb istiqamətində, Rusiyadan Xəzər dənizi boyunca Azərbaycan ərazisindən keçməklə, daha sonra İran istiqamətində aparılır.**



AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

"Azərbaycanın qərb bölgələrini Ermənistan ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirməli olan marşrut Rusiya, Azərbaycan və Ermənistan baş nazirləri müavinlərinin birgə sədrliyi ilə Cənubi Qafqazda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üzrə üçtərəfli işçi qrupu çərçivəsində müzakirə edilir. Üçtərəfli işçi qrupunda iş üçtərəfli razılaşmalar çərçivəsində ən yüksək səviyyədə aparılır", - deyə o bildirib.

Zaxarova əlavə edib ki, Moskvanın Bakı ilə İrəvan arasında kommunikasiyaların açılması ilə bağlı mövqeyi açıq-aydın və hamıya məlumdur. "Biz müvafiq razılaşmaların tərəflərin qarşılıqlı razılığı əsasında və qarşılıqlı məqbul şərtlər əsasında əldə ediləcəyindən çıxış edirik ki, bu, həm Azərbaycanın, həm Ermənistanın, həm də regiondakı qonşuların maraqlarına cavab versin", - deyə diplomat qeyd edib.

## Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarına medallar və vəsiqələr təqdim olunub

**Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il 24 iyun tarixli 171 nömrəli Sərəncamına əsasən dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuş Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarına medal və vəsiqələr təqdim edilib.**




AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov kənd təsərrüfatının daha da inkişafı məqsədilə dövlət tərəfindən çox böyük dəstək tədbirlərinin həyata keçirildiyini bildirib. Nazir bu gün aqrar sahədə əldə edilən uğurların və nəticələrin Prezident İlham Əliyev tərəfindən çox yüksək qiymətləndirildiyini deyib.

Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə ölkə başçısı tərəfindən daim böyük qayğı göstərildiyi, dövlət qulluğunda səmərəli fəaliyyəti ilə seçilən əməkdaşların dəyərləndirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, 2024-cü il 24 iyun tarixli Sərəncamla dövlət qulluqçularının təltif edilməsi onların əməyinə verilən yüksək dəyərdir.

Kənd Təsərrüfatı Nazirliyi sistemində çalışan 9 nəfərin Dövlətimizin başçısının Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif etdiyini xatırladan nazir Məcnun Məmmədov göstərdiyi yüksək diqqət və qayğıya görə aqrar sektorda çalışan insanlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Prezidentin imzaladığı Sərəncamla təltif olunan nazirlik əməkdaşları fəaliyyətlərinə verilən yüksək dəyərə görə dövlətimizin başçısına təşəkkür ediblər.

Sonra təltif edilmiş nazirlik əməkdaşlarına medal və vəsiqələr təqdim olunub.

## *Rusiya XİN:* Azərbaycan, Ermənistan və Rusiyanın əldə etdiyi üçtərəfli razılaşmaların alternativi yoxdur

**Moskva Azərbaycanın Qarabağ ermənilərinin reinteqrasiyası proqramı ilə tanışdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova regionu könüllü olaraq tərk etmiş ermənilərin Qarabağa qayıtması ilə bağlı sualına cavab verərkən bildirib.

"Ermənistan tərəfinin bununla bağlı hər hansı geniş proqramı varmı? Proqram mövcud olsaydı, mən onu şərh edərdim. Siz başqa dövlətin nümayəndəsindən bunu necə görə biləcəyini niyə soruşursunuz? Biz tərəfləri bu məsələnin həll edilməsinə sövq edirik, lakin başa düşdüyünüz qədər, əldə edilmiş razılaşmalar həyata keçirilmədən bunu etmək olduqca çətindir".

Zaxarova əlavə edib ki, Rusiya dövləti Azərbaycan, Ermənistan və Rusiyanın əldə etdiyi üçtərəfli razılaşmaların hələ də alternativi olmamasından çıxış edir.

"Qeyd edilən razılaşmalar sülh müqaviləsinin işlənib hazırlanması, sərhədin delimitasiyası, demarkasiyası, regionda nəqliyyat kommunikasiyalarının açılması və vətəndaş cəmiyyəti xətti üzrə əlaqələrin inkişafı da daxil olmaqla, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasının bütün əsas istiqamətlərini əhatə edir", - deyə Zaxarova bildirib.

## SOCAR ilə "Uniper Se" arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "Uniper Se"nin İdarə Heyətinin üzvü və baş kommersiya direktoru Karsten Poppinqa ilə görüşüb.**



SOCAR-dan AZƏRTAC-a bildirilib ki, görüşdə SOCAR və "Uniper" şirkəti arasında enerji biznesi ilə bağlı geniş spektrli mövzular üzrə mövcud strateji tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsi imkanları nəzərdən keçirilib.

Söhbət zamanı şirkətlər arasında "Şahdəniz" yatağından hasil edilən təbii qazın alqı-satqısı üzrə sazişin uğurla həyata keçirildiyi vurğulanıb və qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Tərəflər neft-qaz sektoru ilə yanaşı, enerji keçidi, enerji səmərəliliyinin artırılması sahələrində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Mühəndis bölmələrində toplanışlar keçirilir

**Bu ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələrində sürücü-mexanik və sürücü heyətləri ilə toplanışlar keçirilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, toplanışlar zamanı hərbi qulluqçular qarşıya qoyulan tapşırıqların icrasında peşəkarlıq nümayiş etdirirlər. Plana əsasən, keçirilən toplanışlarda əsas diqqət şəxsi heyətin döyüş hazırlığının təkmilləşdirilməsi, bilik və bacarıqlarının artırılması, eləcə də praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

## *Türkiyəli ekspert:* "COP29 sülhün təşviqi platformasına çevrilə bilər"

**"Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı iştirakçı ölkələr Olimpiya Oyunlarının ənənələrindən nümunə götürərək atəşkəs elan edə bilərlər ki, bu da fikir ayrılıqlarının uzunmüddətli həlli mövzusunu müzakirə etməyə imkan verəcək".**



AZƏRTAC-dan verilən məlumata görə, bu fikri türkiyəli ekspert Muharrem Sarıkaya "Habertürk" telekanalının saytında dərc olunan məqaləsində qeyd edib. Ekspert COP29-un Olimpiada ilində keçirilməsini əlamətdar hadisə adlandırıb. O qeyd edib ki, Azərbaycanın evsahibliyi edəcəyi genişmiqyaslı beynəlxalq tədbir bütün dünyada "düşmənçilikdən əl çəkməyə" töhfə verə bilər.

Sarıkaya xatırladıb ki, artıq 50-dən çox ölkə öz nümayəndələrinin noyabrda Bakıda keçiriləcək iqlim müzakirələrində iştirakını təsdiqləyib.

Ekspert Azərbaycanla olan ziddiyyətlərə baxmayaraq, COP29-un Bakıda keçirilməsi ideyasını dəstəkləyən Ermənistanın mövqeyini xatırladıb. "Sülh səylərinin nə dərəcədə uğurlu olacağı hələ ki, məlum deyil, lakin Azərbaycanda iqlim konfransının ümumi platformasında müharibə edən ölkələrin nümayəndə heyətlərinin iştirakı faktı artıq çox şeydən xəbər verir", - deyə məqalənin müəllifi qeyd edib.

O yazır ki, Rusiya Prezidenti Vladimir Putin BMT-nin Azərbaycanda keçiriləcək konfransında iştirak edərsə, COP29 iqlim sammiti 2022-ci ilin fevralından sonra Rusiya Federasiyası ilə Qərbi birləşdirəcək ilk platforma olacaq.

Sarıkaya əlavə edib: "Eyni zamanda Suriya Prezidenti Bəşər Əsədin, eləcə də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Bakıdakı müzakirələrdə iştirakı da əhəmiyyətli olacaq. Bəlkə də COP29-a qədər qalan iki ay bir çox ziddiyyətləri həll etmək üçün kifayət etməyəcək, amma fakt budur ki, ölkələr münaqişələrdən yorulub və ən azı atəşkəsə can atırlar. Azərbaycanda keçirilən konfrans həm də Yaxın Şərqdə sülhə nail olunması yollarının axtarılması platformasına çevrilə bilər".

Ekspert vurğulayıb ki, sülhməramlı məqsədlərə nail olmağa töhfə verə biləcək ölkə beynəlxalq nüfuzunu ciddi şəkildə artıracaq.

Müəllif diqqəti Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsində yer alan Bakının COP29 çərçivəsində təkcə iqlim gündəliyini deyil, həm də sülhü təşviq etməyə çalışması barədə bəyanatına çəkib.

## Naxçıvan istiqamətində mövqelərimiz yenidən atəşə tutulub

Avqustun 28-i saat 18:30-da Ermənistan silahlı qüvvələrinin bölmələri Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şada yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan istiqamətdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

## Mərakeşli media nümayəndələri Azərbaycana viza rejiminin aradan qaldırılmasından məmnunluq ifadə ediblər

**Mərakeş vətəndaşları Azərbaycana daxil olarkən viza rejiminin aradan qaldırılmasını çox müsbət qarşılayıblar. Həmçinin mərakeşli media nümayəndələri Azərbaycana viza rejiminin aradan qaldırılmasından məmnunluq ifadə ediblər.**



AZƏRTAC-a müsahibə verən mərakeşli media nümayəndələrindən biri olan fransızdilli "Əl-Sabah" qəzetinin regional müxbiri Driss Lyakubi bildirib ki, bununla da hər iki ölkənin vətəndaşları zəngin tarixi, mədəni və təbii resurslardan istifadə edə biləcəklər: "Viza rejiminin aradan qaldırılması ölkələrimiz arasındakı iqtisadi və sosial münasibətlərə də müsbət təsir göstərəcək".

Mərakeş Nəşriyyatçılar və Media Peşəkarları Assosiasiyasının baş katibi Xədicə Korçi də viza rejiminin aradan qaldırılmasını müsbət qiymətləndirib.

Media məsləhətçisi və jurnalistika təlimi sahəsində ekspert Hassan Elyousfi Lemrhari isə deyib ki, Şərqlə Qərbin kəsişməsində yerləşən Mərakeşə səfər edə bilmək imkanı azərbaycanlılar üçün də çox müsbət bir haldır.

Elyousfi qeyd edib ki, bununla da Mərakeş vətəndaşlarının Azərbaycana səyahətində artım müşahidə olunacaq.

Audiovizual media sahəsində mütəxəssis Mohamed Siraj Al-Daou iki ölkənin hökumətləri arasında razılaşmanı çox yaxşı qərar kimi qiymətləndirib.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR № 33/157

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 avqust tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 avqust tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.08.2024*

QƏRAR № 33/158

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 avqust 2024-cü il tarixli 31 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 88 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Sərdarlı Şahin Rövşən oğlu 2024-cü il avqustun 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd tərəfindən seçkiqabağı təşviqat qaydalarının pozulduğunu iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 88 saylı Şamaxı seçki dairəsi üzrə qeydə alınmış namizəd Sərdarlı Şahin Rövşən oğlunun 2024-cü il 27 avqust tarixli 31 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.08.2024*

QƏRAR № 33/159

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 avqust 2024-cü il tarixli 32 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlu 2024-cü il avqustun 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, həmin dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli 20/74 saylı qərarını mübahisələndirmiş, qərarın ləğv edilməsini və həmin seçki dairəsi üzrə digər qeydə alınmış namizədin seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularına yol verdiyini iddia edərək, onun barəsində qanunauyğun tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma zamanı ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

M.A.Mahmudov müraciətində 24 avqust 2024-cü il tarixdə 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyasına yazılı müraciət etdiyini, həmin seçki dairəsi üzrə digər qeydə alınmış namizəd Qaya Məmməd oğlu Məmmədovun seçkiqabağı çap təşviqat materiallarında - flayerlərdə Seçki Məcəlləsinin 87.3-cü və 87.5-ci maddələrinin tələblərinin pozulduğunu və buna görə Məcəllənin 87.9-cu maddəsinə uyğun olaraq tədbirlər görülməsini xahiş etdiyini bildirmişdir.

Dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli qərarı ilə müraciət təmin edilməmişdir. Dairə seçki komissiyası öz qərarını onunla əsaslandırmışdır ki, qeydə alınmış namizəd Q.M.Məmmədov seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq seçkiqabağı təşviqat zamanı çap olunan seçkiqabağı təşviqat materiallarının surətini (nüsxələrini) 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir. Araşdırma zamanı təqdim edilmiş materiallara yenidən baxış keçirilmiş və müəyyən edilmişdir ki, təşviqat materiallarında sifarişçinin adı, materialları hazırlayan təşkilatın adı, tirajı və buraxılış tarixi barədə məlumatlar qeyd edilmişdir. Araşdırma nəticəsində seçkiqabağı təşviqat materialları hazırlanarkən qanunvericiliyin tələblərinin pozulması halı öz təsdiqini tapmamışdır.

Dairə seçki komissiyasının iclasında qeydə alınmış namizəd M.A.Mahmudovun iştirakı təmin edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından M.A.Mahmudovun şikayətinin araşdırılması materialları, həmçinin dairə seçki komissiyasına rəsmi olaraq Q.M.Məmmədov tərəfindən təqdim olunmuş seçkiqabağı çap təşviqat materiallarının surətləri (nüsxələri) tələb olunaraq araşdırılmışdır.

Müraciətin araşdırılması ilə əlaqədar 31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasının sədrindən, katiblərindən, üzvündən və dairə seçki komissiyası katibliyinin baş məsləhətçisindən alınan izahatlardan müəyyən olunur ki, Q.M.Məmmədov seçki qanunvericiliyinin tələblərinə tam uyğun olaraq çap olunmuş seçkiqabağı təşviqat materiallarının surətlərini (nüsxələrini) və digər zəruri məlumatları qanunvericiliklə müəyyən olunmuş müddətdə dairə seçki komissiyasına təqdim etmişdir.

Həmçinin dairə seçki komissiyasında tərtib edilmiş 24 avqust 2024-cü il tarixli aktdan məlum olur ki, dairə seçki komissiyasında aparılan araşdırma zamanı qeydə alınmış namizəd Q.M.Məmmədov tərəfindən Seçki Məcəlləsinin 87.4-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyasına təqdim edilmiş çap təşviqat materiallarının surətlərinə (nüsxələrinə) şikayətçi M.A.Mahmudovun iştirakı ilə baxış keçirilərkən həmin çap təşviqat materiallarının üzərində zəruri məlumatların olması öz təsdiqini tapmışdır.

Araşdırma prosesində qeydə alınmış namizəd Q.M.Məmmədovun seçkiqabağı təşviqat materiallarının çap olunduğu mətbəəyə göndərilən sorğuya cavab olaraq verilmiş 28 avqust 2024-cü il tarixli arayışda Q.M.Məmmədovun sifarişi ilə hazırlanmış seçkiqabağı çap təşviqat materiallarının üzərində müvafiq rekvizitlər (materialları sifariş edənin, hazırlayan təşkilatın adı, tirajı və buraxılış tarixi) göstərilməklə 9 avqust 2024-cü il tarixdə çap edilərək sifarişçiyə təhvil verildiyi göstərilmiş, eyni zamanda təqdim olunmuş müvafiq hesab-fakturalar əsasında həmin çap təşviqat materiallarının dəyərinin ödənildiyi müəyyən edilmişdir.

Araşdırma ilə qeydə alınmış namizəd Q.M.Məmmədova aid seçkiqabağı çap təşviqat materiallarının Seçki Məcəlləsinin 87.3-cü maddəsinin tələblərinə uyğun olaraq çap edildiyi bir daha öz təsdiqini tapmışdır.

Beləliklə, araşdırma ilə müəyyən edilir ki, qeydə alınmış namizəd M.A.Mahmudovun həmin seçki dairəsindən digər qeydə alınmış namizəd Q.M.Məmmədovun seçkiqabağı çap təşviqat materiallarında - flayerlərdə Seçki Məcəlləsinin 87.3-ci və 87.5-ci maddələrinin tələblərinin pozulmasına dair iddiası öz təsdiqini tapmadığından şikayətin təmin edilməsi üçün əsaslar yaranmamış, bu əsasla M.A.Mahmudovun şikayətini təmin etməməklə dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən qeydə alınmış namizəd M.A.Mahmudovun müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı qüvvədə saxlanılmalıdır.

Yuxarıda qeyd edilənlərə uyğun olaraq, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.1-ci, 19.4-cü, 19.14-cü, 28.2-ci, 87-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun 27 avqust 2024-cü il tarixli 32 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 26 avqust 2024-cü il tarixli 20/74 saylı qərarı qüvvədə saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*28.08.2024*

# Səsvermə prosesi, səslərin sayılması, nəticələrin və yekunların müəyyən olunaraq ictimailəşdirilməsi

**Səsvermə prosesi seçkilərin əsas mərhələlərindən biri olmaqla, müəyyən məkan və zaman daxilində, qanunda nəzərdə tutulmuş qaydada seçki subyektləri tərəfindən həyata keçirilən hərəkətlərin məcmusudur. Seçkilərin təyin edilməsi günündən başlayaraq icra edilən bütün seçki hərəkətləri mərhələli şəkildə, qanunvericilikdə müəyyən edilmiş müddətdə və qaydada icra edilir, bir mərhələnin icrası başqa mərhələ üçün hüquqi nəticə yaradır və onun icrasının başa çatması digərinin başlamasına səbəb olur.**



Azərbaycan Respublikası Seçki Məcəlləsinin 98-ci maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanları və ya bələdiyyələr seçkilər günü səsvermənin həyata keçirilməsi məqsədilə məntəqə seçki komissiyalarına əvəzsiz olaraq səsvermə otağı ayırır. Səsvermə otaqları daşınan və daşınmaz seçki qutuları, səsvermə kabinələri, məlumat lövhələri, gözə görünməyən mürəkkəblə dolu qablar, ultrabənövşəyi lampalar, stol, stul, yazı ləvazimatları, gizli səsvermə üçün lazım olan digər zəruri əşyalarla təmin olunur.

Səsvermə otağında daimi seçici siyahısı, namizədlər haqqında məlumat (namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı, nömrəsi, namizədin yaşadığı başqa dövlətdə Cinayət Məcəlləsində cinayət sayılan əməli olmuş və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışsa, xarici dövlətin müvafiq qanununun adı göstərilməklə), seçki bülletenlərinin doldurulması qaydası haqqında izah və seçki bülletenlərinin nümunələri müvafiq qaydada məlumat lövhəsində asılır. Məlumatlar seçicilər tərəfindən tam və sərbəst oxunması üçün hamının görə biləcəyi yerdə yerləşdirilməlidir.

Aşkarlığın təmin edilməsi məqsədilə səsvermə otağı elə təşkil edilməlidir ki, seçicilərin barmaqlarının yoxlanılması, seçici siyahısında adının axtarılması, seçki bülletenlərinin verilməsi, barmağın gözə görünməyən mürəkkəblə işarələnməsi, səsvermə kabinələri və qutuları məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər tərəfindən sərbəst görünsün.

Seçki günü məntəqə seçki komissiyaları tərəfindən səsvermənin başlanmasınadək olan müddətdə (saat 08:00-dək) bir sıra zəruri hərəkətlər icra edilir. Məntəqə seçki komissiyasının sədri tərəfindən komissiya üzvləri arasında vəzifə bölgüsü aparılır, seçki materialları və avadanlıqları hazır vəziyyətə gətirilir, səsvermənin başlanmasına 24 saat qalmış təşviqat materialları (seçicilərin maariflənməsi üçün nəzərdə tutulmuş materiallar istisna olmaqla) seçki məntəqəsindən çıxarılır, seçki bülletenləri sayılır və möhürlənir, əgər istifadə edilməmiş qeydiyyatdan çıxma vəsiqələri varsa, onlar ləğv olunur və bu barədə akt tərtib edilir, səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələri məlumat lövhəsində asılır.

Səsvermə günü saat 07:50-də məntəqə seçki komissiyasının sədri uca səslə seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib onları kilidləyir və saat 08:00-da səsvermənin başlandığını elan edir.

Müəyyənləşdirilmiş vəzifə bölgüsünə uyğun olaraq, məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan seçicilərin şəxsiyyətini təsdiq edən sənədlərini və ultrabənövşəyi lampadan istifadə etməklə onların sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə əvvəl işarələnib-işarələnmədiyini yoxlamalı, yalnız bundan sonra səsvermə otağına daxil olmağa icazə verməlidir. Əgər seçici yeni nəsil şəxsiyyət vəsiqəsi ilə səs verirsə, onda səxsiyyət vəsiqəsi çip oxuyan qurğudan istifadə etməklə oxunur və vətəndaşın orada göstərilən ünvanı ilə seçicilər siyahısındakı yaşayış yerinin ünvanının uyğunluğu yoxlanılır. Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisinə hazırkı seçkilərdə yeni nəsil şəxsiyyət vəsiqələrindəki məlumatları oxumaq üçün ölkə üzrə bütün məntəqə seçki komissiyalarının hər biri 2 ədəd çip oxuyan qurğu ilə təmin edilib.

Səsverməyə gələn seçici seçki bülleteni almaq üçün komissiya üzvünə şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən digər sənədi təqdim etməlidir. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular zabitin şəxsi vəsiqəsi, hərbi bilet, istintaq təcridxanalarında saxlanılan şəxslər təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd, azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər məhkumun şəxsiyyətini təsdiq edən sənəd, Azərbaycan Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslər icazə vəsiqəsi və ya vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi əsasında səs verirlər. Həmin sənədlər təqdim edildikdən sonra məntəqə seçki komissiyasının üzvü tərəfindən sənədlərin seriya və nömrəsi seçicilər siyahısında qeyd edilir.

Məntəqəyə daxil olan seçicinin adının seçicilər siyahısında olduğu müəyyənləşdirildikdən sonra ona səs vermək üçün seçki bülleteni verilir. Seçki komissiyasının üzvü tərəfindən seçki bülleteninin nömrələnmiş yuxarı sol küncü müəyyən edilmiş hissədən kəsilərək seçiciyə təqdim edilir. Seçici seçici siyahılarında yazıların düzgünlüyünü yoxlayır və seçki bülletenini alarkən imza edir. Ardınca seçici səsvermə kabinəsinə daxil olur və seçki bülletenini doldurduqdan sonra onu seçki qutusuna salaraq məntəqəni tərk edir.

Seçici seçki bülletenini korlayarsa, o, yenidən bülleten almaq üçün ərizə ilə məntəqə seçki komissiysına müraciət edə bilər. Bu halda korlanmış bülleten ortadan kəsilərək ləğv edilir, bu barədə akt tərtib olunur, seçiciyə yeni bülleten verilir və seçicilər siyahısında seçicinin soyadından sağda bu barədə müvafiq qeyd aparılır.

Səsvermə günü seçici səhhətinə və ya digər üzrlü səbəblərə görə seçki məntəqəsinə gələ bilməyəcəyini yəqin edərsə, o, seçkilər gününə azı 24 saat qalmış səsvermə otağından kənarda səs vermək istəyini məntəqə seçki komissiyasına yazılı və ya şifahi şəkildə, bilavasitə özü və ya digər şəxs vasitəsilə bildirə bilər. Bu istək şifahi şəkildə bildirilibsə, onun müraciəti səsvermə zamanı müvafiq ərizə ilə rəsmiləşdirilir. Məntəqə seçki komissiyası həmin vətəndaşın səsvermədə iştirakını təmin etmək üçün onun yaşadığı ünvana müvafiq qaydalara uyğun olaraq daşınan seçki qutusu göndərir.

Səslərin sayılması prosesi səsvermə günündə həyata keçirilən əsas həlledici seçki hərəkətlərindəndir. Səsvermə başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədri səsvermənin başa çatmasını, yalnız seçki bülleteni almış və səsvermə otağında olan seçicilərin səs verə biləcəyini ucadan elan edir. Seçki məntəqəsində olan seçicilərin səs verməsi başa çatdıqdan sonra istifadə edilməmiş seçki bülletenləri səsvermə otağında olan qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərin, müşahidəçilərin, media nümayəndələrinin müşahidəsi ilə məntəqə seçki komissiyasının üzvləri tərəfindən sayılır və onların ləğv ediməsinə dair akt tərtib edilir. Seçki məntəqəsi üzrə səsvermənin nəticələri yuxarıda qeyd edilən şəxslərin müşahidəsi altında Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş formaya uyğun olan və hər bir nüsxəsi müxtəlif rəngdə olmaqla 3 nüsxədən ibarət karbonlaşdırılmış kağızdan buklet formasında hazırlanmış protokolda komissiyanın həlledici səs hüquqlu üzvü tərəfindən əlyazısı qaydasında qeyd olunur. Məntəqə üzrə seçici siyahılarında olan seçicilərin, qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin, dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilmiş seçki bülletenlərinin, seçki bülleteni almış seçicilərin, istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin və korlanmış seçki bülletenlərinin sayı yekun protokolunda seçki qutuları açılmazdan əvvəl yazılır. Bundan sonra məntəqə seçki komissiyasının sədri seçki qutularının möhür və plomblarının salamatlığını yoxlayır, məntəqə seçki komissiyasının üzvlərini və müşahidəçiləri bununla əyani surətdə tanış edərək seçki qutularını açır.

Əvvəlcə daşınan seçki qutusu açılır və bülletenlər sayılır. Daşınan seçki qutusunda olan bülletenlərin sayı kənarda səs verilməsi üçün seçicilərin verdikləri ərizələrin sayından çox olmamalıdır. Daşınan seçki qutusu üzrə səslər hesablanarkən, qutudakı bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından (bülleten alan seçicilərin ümumi sayından) çox olarsa, oradakı bütün səslər məntəqə seçki komissiyasının qərarı ilə etibarsız hesab edilir.

Səslər sayıldıqda, seçki qutularında yalnız müəyyənləşdirilmiş formada (Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış, nömrələnmiş yuxarı sol küncü kəsilmiş, yuxarı sağ küncü məntəqə seçki komissiyasının möhürü ilə möhürlənmiş) olan seçki bülletenlərindəki səslər hesablanır. Seçki qutularından müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri çıxdıqda, həmin bülletenlər sayılaraq məntəqə seçki komissiyası tərəfindən aktlaşdırılır və həmin akt səsvermənin nəticələrinə dair protokola əlavə olunur.

Seçki qutusundan çıxmış seçki bülletenində namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamışdırsa və ya birdən çox işarə qoyulmuşdursa, həmin bülleten etibarsız hesab edilir. Bundan başqa, seçki bülletenində səsin etibarlığına şübhə yaranarsa, məntəqə seçki komissiyası məsələni səsvermə yolu ilə həll edir. Əgər səsin etibarsız sayılması haqqında qərar qəbul edilərsə, bülletenin arxa tərəfində onun etibarsız sayılmasının səbəbləri yazılır və bu hal məntəqə seçki komissiyası sədrinin və katiblərinin imzası ilə təsdiq edilir. Etibarlı və etibarsız hesab edilmiş seçki bülletenlərinin sayı, eləcə də etibarlı hesab edilmiş seçki bülletenlərindəki səslərin sayı məntəqə seçki komissiyasının yekun protokolunun müvafiq bəndlərində göstərilir.

Yuxarıda sadalananlar icra edildikdən sonra etibarlı hesab edilmiş səslərin sayı (hər bir namizədin lehinə verilmiş səslər) namizədlər arasında bölünür və yekun protokolunda seçki bülleteninə daxil edilmiş namizədlərin siyahısına uyğun olaraq tərtib edilmiş cədvəldə hər bir namizədin qarşısında göstərilməklə qeyd edilir.

Məntəqə seçki komissiyasının yekun protokolunun birinci nüsxəsi, səsvermə günü məntəqə seçki komissiyasına daxil olmuş şikayətlər, həmin şikayətlərə baxılması barədə komissiyanın qərarları, məntəqə seçki komissiyası tərəfindən seçki bülletenlərinin alınmasına dair akt, istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi haqqında akt, seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayına dair akt, korlanmış seçki bülletenlərinin sayı barədə akt, seçki bülletenləri və məntəqə üzrə seçicilərin siyahısı əlavə edilməklə dərhal, lakin 24 saatdan gec olmayaraq məntəqə seçki komissiyası sədrinin və müxtəlif siyasi partiyaları təmsil edən iki üzvün və müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına göndərilir. Yuxarıda qeyd olunan sənədlərin surətləri əlavə edilməklə protokolun ikinci nüsxəsi məntəqə seçki komissiyasının katibində saxlanılır, protokolun üçüncü nüsxəsi tərtib edildikdən sonra məlumat lövhəsində asılır və 5 gün orada qalır.

Səsvermə günü məntəqə seçki komissiyasına daxil olmuş müraciət və şikayətlərə Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Məntəqə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada baxılır.

Səsvermə günündən ən geci 2 gün keçənədək dairə seçki komissiyasının protokolu seçki dairəsi üzrə məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında tərtib edilir. Səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının yekun protokolunda ilkin olaraq məntəqə seçki komissiyalarının sayı, məntəqə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı, dairə seçki komissiyası protokolunun tərtib olunması üçün əsas götürülmüş məntəqə seçki komissiyaları protokollarının sayı, səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı və səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı göstərilir. Bundan sonra protokol müvafiq bəndlər üzrə - seçici siyahılarında olan seçicilərin, qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin, dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin, seçki bülleteni almış seçicilərin, istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin, korlanmış seçki bülletenlərinin, seçki qutularında olan seçki bülletenlərinin, etibarsız hesab edilmiş seçki bülletenlərinin, etibarlı hesab edilmiş seçki bülletenlərinin və etibarlı hesab edilmiş səslərin sayı, o cümlədən etibarlı hesab edilmiş səslərin namizədlər arasında bölünməsi, seçilmiş namizədin adı göstərilməklə tam və dəqiq doldurulur.

Dairə seçki komissiyası protokolunun birinci nüsxəsi, Seçki Məcəlləsində nəzərdə tutulmuş sənədlər əlavə edilməklə səsvermə günündən iki gündən gec olmayaraq, dairə seçki komissiyası sədrinin və müxtəlif siyasi partiyaları təmsil edən üzvlərin müşayiəti ilə Mərkəzi Seçki Komissiyasına göndərilir, ikinci nüsxəsi dairə seçki komissiyasının katibində qalır, üçüncü nüsxə və müvafiq məntəqə seçki komissiyalarının protokollarının surətləri məlumat lövhəsində asılır və 10 gün saxlanılır.

Seçki prosesinin sonuncu mərhələsi seçkilərin nəticələrinin və yekunlarının müəyyən olunaraq ictimailəşdirilməsidir. Seçki Məcəlləsinin 171-ci maddəsinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə uyğun olaraq Milli Məclisə seçkilərin yekunlarını Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir. Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 20 gün keçənədək dairə seçki komissiyalarının protokollarını (Seçki Məcəlləsinə uyğun olaraq onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlayır, 24 saat müddətində Konstitusiya Məhkəməsinə təqdim edir. Konstitusiya Məhkəməsi göstərilən sənədləri aldıqdan sonra 10 gün müddətində müvafiq mütəxəssisləri cəlb etməklə həmin sənədlərin Seçki Məcəlləsinə uyğunluğunu yoxlayır. Dairə seçki komissiyalarının protokolları qanunvericiliyin tələblərinə cavab verdikdə Konstitusiya Məhkəməsi seçkilərin yekunlarını təsdiq edir. Konstitusiya Məhkəməsinin bu haqda qərarı qətidir.

*İlkin ŞAHBAZOV,*
*Azərbaycan Respublikası*
*Mərkəzi Seçki Komissiyasının üzvü*

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Qanunvericilik sistemində yeni mərhələ başlayır

### Parlament seçkiləri ölkəmizin siyasi tarixində dönüş yaradacaq

**Parlament seçkilərinə 4 gün qalır. Ölkəmizin seçki qanunvericiliyinə əsasən hazırda deputatlığa namizədlərin təşviqat kampaniyaları davam edir. Bu proses səsvermə gününə 23 gün qalmış start götürür və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Yəni parlament seçkilərinin təşviqat mərhələsi bu ayın 31-i saat 08:00-da dayandırılacaq.**



Seçkilərə hazırlıq prosesinə gəlincə, deyə bilərik ki, Mərkəzi Seçki Komissiyası qanunvericiliyin tələblərinə uyğun bütün prosesləri uğurla həyata keçirir. Artıq seçkilərlə əlaqədar olaraq maarifləndirmə tədbirləri yekunlaşıb.

Ümumiyyətlə, Azərbaycanda keçirilən seçkilər daim fərqli aşkarlıq institutlarının, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, media nümayəndələrinin sərbəst iştirakı ilə xarakterizə olunub. İnformasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin uğurla tətbiqi nəticəsində şəffaflığın miqyası daha da genişlənib, seçki günü bütün prosesləri hər hansı bir maneə ilə rastlaşmadan, əvvəldən axıradək fasiləsiz müşahidə aparmaq imkanı yaranıb.

İlk dəfə ölkəmizin bütün suveren ərazilərində keçirilməklə əlamətdar ictimai-siyasi hadisəyə çevrilən Milli Məclisə seçkilərdə də müxtəlif metod və vasitələrdən istifadə edilməklə şəffaflığın yüksək səviyyədə təminatına xüsusi diqqət yetirilib. Belə ki, 16 ildir müvəffəqiyyətlə reallaşdırılan və səmərəliliyi ilə öz təsdiqini tapmış veb-kamera layihəsi qarşıdan gələn seçkilərdə də davam etdiriləcək.

Seçki günü - sentyabrın 1-də səsvermə məntəqələrində proseslərin tamamilə müşahidə edilməsi məqsədilə 1000 seçki məntəqəsində texniki parametrləri daha da gücləndirilərək təkmilləşdirilmiş və yüksək görüntü effektinə malik veb-kamera quraşdırılıb. İnternet istifadəçiləri seçki günü istər ölkə daxilindən, istərsə də ölkə hüdudlarından kənardan Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olmaqla, heç bir qeydiyyat tələb edilmədən bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik olacaqlar.

Avqustun 27-də MSK sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçiriblər. Onlar proseslərin gedişi ilə yaxından tanış olub, seçkilərin şəffaflığının təmin edilməsində mühüm əhəmiyyət daşıyan veb-kameraların quraşdırılmasında seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət olunmasının önəmini vurğulayıb və zəruri tövsiyələrini mütəxəssislərin diqqətinə çatdırıblar. Milli Məclisə seçkilərdə veb-kameraların tətbiqi layihəsini sıx əməkdaşlıq şəraitində birgə reallaşdıran qurumların rəhbərlərinə veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi istiqamətində intensiv şəkildə aparılan son hazırlıq işləri barədə məlumat verilib.

MSK sədri Məzahir Pənahov bildirib ki, seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün indiyədək ümumilikdə 111 min 200-ə yaxın yerli müşahidəçi akkreditasiyadan keçib. Həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan 227 nəfər, ATƏT PA-dan 61 nəfər MDB Parlamentlərarası Assambleyasından 34 nəfər, Müstəqil Dövlətlər Birliyindən 93 nəfər, Türk Dövlətləri Parlament Assambleyasından (TÜRKPA) 16 nəfər akkreditə olunub.

Parlament seçkilərini müşahidə etmək üçün 50 beynəlxalq qurumdan və 69 ölkədən 604 nəfər akkreditə olunub. Seçkiləri müşahidə etmək üçün 25 siyasi partiyanın 65 minə yaxın müşahidəçisi qeydə alınıb.

Hər bir dövlət üçün mühüm siyasi-ictimai hadisələrdən biri prezident və parlament seçkiləri hesab olunur. Seçkilərin ən böyük özəlliyi isə onun demokratik, ədalətli və şəffaf keçirilməsi, xalqın siyasi iradəsini ifadə etməsidir.

Bütün bunları əsas gətirərək deyə bilərik ki, sentyabrın 1-də ölkəmizdə mühüm siyasi-ictimai hadisə yaşanacaq. Suverenliyimizin tam təminatından sonra ilk dəfə olaraq bütün Azərbaycan ərazisində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda parlament seçkiləri keçiriləcək. Məzahir Pənahov bilidirib ki, işğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi üzrə 42 mindən çox səsvermə hüququna malik vətəndaş səs verə bilər.

Azərbaycanda seçkilərin təşkili və keçirilməsi üzrə olduqca zəngin demokratik ənənə və böyük təcrübə mövcuddur. Bu baxımdan qarşıdan gələn seçkilər respublikamızda demokratik dəyərlərin tam bərqərar olduğunu növbəti dəfə təsdiq edəcək. Seçicilərin seçkilərdə iştirakı isə respublikamızın inkişaf və yüksəliş reallıqlarına əsaslanacaq.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə iki ay qalmış ev sahibi olan Azərbaycanda parlament seçkilərinin təşkili ölkədəki mövcud demokratiya ilə bağlı dünya ictimaiyyətində müsbət rəy formalaşdıracaq, parlament seçkiləri ölkədə demokratiyanın daha da güclənməsinə rəvac verəcək.

***Rəşad BAXŞƏLİYEV,*** 
***"Azərbaycan"***

## Vətənlərinə qayıdan Füzuli sakinləri doğma şəhərdə səs verə biləcəklər






**Sentyabrın 1-nə təyin olunan Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə bağlı 84 saylı Füzuli seçki dairəsi üzrə bütün seçki məntəqələrində hazırlıq işləri başa çatıb.**

84 saylı Füzuli seçki dairəsi dairə seçki komissiyasından AZƏRTAC-ın verdiyi məlumata görə, sözügedən dairə üzrə 78 seçki məntəqəsi var, 4 seçki məntəqəsi işğaldan azad olunan Füzuli şəhərində yerləşir. Dairə üzrə ümumilikdə 54 min 246 seçici qeydə alınıb ki, onlardan da ilk dəfə səsvermədə iştirak etmək hüququ olanların sayı 583 nəfərdir.

Dairə üzrə bütün seçki məntəqələrində hazırlıq işləri başa çatıb. Seçkilərin demokratik, şəffaf və ədalətli şəkildə keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Məntəqələr zəruri texniki vasitə və metodiki vəsaitlərlə, elektrik enerjisi, rabitə şəbəkəsi və yanğın təhlükəsizliyi ilə təmin olunub. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr qoyulub. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Dairə üzrə 8 nəfərin namizədliyi qeydə alınıb. Seçkilərin gedişatını izləmək üçün 1253 nəfər müşahidəçi qeydiyyatdan keçib.

## Cəbrayıl şəhəri və Soltanlı kəndindəki seçki məntəqələri seçkiyə tam hazırdır

**Sentyabrın 1-nə təyin olunan Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə bağlı 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi üzrə bütün seçki məntəqələrində hazırlıq işləri başa çatıb.**




120 Saylı Cəbrayıl-Qubadlı Seçki Dairəsi Dairə Seçki Komissiyasından AZƏRTAC-dan verilən məlumata görə, dairə üzrə 82 seçki məntəqəsi var, 2 seçki məntəqəsi işğaldan azad olunan ərazidə, Cəbrayıl şəhərində və Soltanlı kəndi ərazisində yerləşir. Dairə üzrə ümumilikdə 54486 seçici qeydə alınıb ki, onlardan da ilk dəfə səsvermədə iştirak etmək hüququ olanların sayı 570 nəfərdir. Seçki prosesini izləmək üçün 1359 nəfər müşahidəçi qeydə alınıb. İşğaldan azad olunan ərazilərdəki seçki məntəqələri də daxil olmaqla, dairə üzrə bütün seçki məntəqələrində hazırlıq işləri başa çatıb. Seçkilərin demokratik, şəffaf və ədaləti keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Məntəqələr zəruri texniki vasitə və metodiki vəsaitlərlə, elektrik enerjisi, rabitə şəbəkəsi və yanğın təhlükəsizliyi ilə təmin olunub. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr qoyulub. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib.

## Naxçıvanda fəaliyyət göstərən media nümayəndələri üçün onlayn seminar keçirilib

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar silsilə maarifləndirmə tədbirləri çərçivəsində Mərkəzi Seçki Komissiyası və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda fəaliyyət göstərən media nümayəndələri üçün onlayn seminar baş tutub.**





Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, seminarda çıxış edən agentliyin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova agentlik tərəfindən seçki prosesini işıqlandıran media nümayəndələri ilə interaktiv əlaqə saxlanıldığını, onların suallarının operativ cavablandırıldığını, ölkəyə qarşı yönəlmiş qərəzli və sistemli saxta xəbərlərin aşkarlanaraq ifşa olunması üçün digər müvafiq dövlət qurumları ilə effektiv işin qurulduğunu diqqətə çatdırıb.

Mərkəzi Seçki Komissiyasının üzvü Hüseyn Paşayev isə qeyd edib ki, media nümayəndələri sərbəst şəkildə istənilən məntəqədə və ya dairədə seçkiləri müşahidə etmək hüququna malikdirlər. O vurğulayıb ki, media təmsilçilərinin öhdəliyi seçki prosesinin bütün mərhələlərində şəffaflığa nəzarət, seçkinin gedişini və nəticələrini obyektiv işıqlandırmaqdır.

Seminarın sonunda jurnalistlərin sualları cavablandırılıb və onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

## *Beynəlxalq ekspert:*

## "Parlament seçkiləri Azərbaycanda demokratiyanın daha da güclənməsinə rəvac verəcək"



**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə iki ay qalmış ev sahibi olan Azərbaycanda parlament seçkilərinin təşkili ölkədəki mövcud demokratiya ilə bağlı dünya ictimaiyyətində müsbət rəy formalaşdıracaq. Düşünürəm ki, Azərbaycanda keçiriləcək parlament seçkiləri ölkədə demokratiyanın daha da güclənməsinə rəvac verəcək".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında pakistanlı ekspert, YFK beyin mərkəzinin icraçı direktoru Zaman Bacva deyib.

Z.Bacva bildirib ki, dövləti və xalqı idarə etmək üçün öz nümayəndələrini seçən hər bir ölkənin demokratik inkişafı baxımından seçkilər çox vacibdir. Bu, ölkədə demokratiyanın möhkəmlənməsi üçün çox müsbət addımdır.

"Bu seçkilər həm də ona görə tarixidir ki, bu, Azərbaycanın bütün ərazilərində, o cümlədən işğaldan azad edilmiş torpaqlarda keçiriləcək ilk parlament seçkiləri olacaq. Vətəndaşlar doğma torpaqları işğaldan azad edildikdən sonra orada seçki prosesində iştirak edəcəklər. Bu, çox qürurvericidir.

Azərbaycan Pakistanın qardaşı və strateji tərəfdaşıdır. Dost və qardaş olaraq Azərbaycan xalqına sentyabrın 1-nə təyin edilmiş Milli Məclisinə növbədənkənar parlament seçkilərində uğurlar arzulayırıq", - deyə YFK beyin mərkəzinin icraçı direktoru vurğulayıb.

## "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası beynəlxalq təşkilatlara hesabat təqdim edib

**"Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin müşahidəsi ilə əlaqədar aralıq hesabatını beynəlxalq təşkilatlara və diplomatik nümayəndəliklərə təqdim edib. Aralıq hesabat koalisiyanın sosial şəbəkə hesablarında ingilis dilində yerləşdirilib və beynəlxalq auditoriya üçün əlçatandır.**


VƏTƏNDAŞ CƏMİYYƏTİ UĞRUNDA
SEÇKİ MÜŞAHİDƏ KOALİSİYASI

Observation of the snap elections to the Milli Majlis (Parliament) of the Republic of Azerbaijan to be held on September 1, 2024

INTERIM REPORT

I. Overview

The Election Observation Coalition "For Civil Society" is conducting observation of the upcoming snap elections to the Milli Majlis (Parliament) of the Republic of Azerbaijan, scheduled for September 1. The coalition was established by the "Prioritet" Social-Economic Research Center Public Union, the "Legal Analysis and Research" Public Union, and the "Promotion of the Activities of Municipalities" Public Union.

The goal of the Election Observation Coalition "For Civil Society" is to ensure transparency, accountability, and inclusiveness in the electoral process, registration of candidates, the conduct of the election campaign, the counting of votes on election day, the handling of complaints, the activity of the election administration, the election environment, and the consideration of international standards and best practices and to

AZƏRTAC xəbər verir ki, hesabat, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun müşahidə missiyasına təqdim edilib. Aralıq hesabatda seçkiqabağı mühit, namizədlərin irəli sürülməsi, imzatoplama mərhələsi və namizədlərin qeydiyyatı, seçki siyahılarının dəqiqləşdirilməsi, seçkiqabağı təşviqatın ilk həftəsi ilə bağlı dəyərləndirmə əks olunub. Bundan əlavə, hesabatda namizədlərin gender və yaş göstəriciləri, vətəndaş cəmiyyətini, bələdiyyələri təmsil edən namizədlər haqqında ətraflı təhlil verilib. Sənəddə həmçinin koalisiyanın tövsiyələri əks olunub.

Koalisiya, eyni zamanda səsvermə günündən sonra ilkin, daha sonra isə yekun hesabatla çıxış edəcək.

Qeyd edək ki, "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsini həyata keçirəcək. Koalisiya "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi, Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyi və "Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi tərəfindən yaradılıb.

"Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyasının məqsədi seçki prosesində şəffaflığın, hesabatlılığın, inklüzivliyin təmin edilməsi, namizədlərin qeydiyyatı, təşviqat kampaniyasının aparılması, səsvermə günü səslərin hesablanması və şikayətlərə baxılması, seçki administrasiyasının fəaliyyəti, seçki mühiti və beynəlxalq standartlar və qabaqcıl təcrübənin nəzərə alınması məsələləri ilə əlaqədar bütün maraqlı tərəfləri müstəqil, obyektiv qiymətləndirmə ilə təmin etməkdir.

Koalisiya işğaldan azad edilmiş ərazilər və Naxçıvan Muxtar Respublikası daxil olmaqla, ölkə üzrə 75 seçki dairəsində 500 müşahidəçi vasitəsilə müşahidə aparacaq. Müşahidəçilərin əksəriyyəti QHT üzvləri, fəalları və könüllüləridir. Koalisiya aralıq və yekun hesabat hazırlayacaq, hesabatlar ingilis dilində beynəlxalq auditoriya üçün də əlçatan olacaq.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Niderlandın Azərbaycan "canfəşanlığı"

### Bu ölkənin parlamentində 4 ildə Azərbaycan əleyhinə 26 təxribat xarakterli qətnamənin qəbulu Qərb riyakarlığının bariz nümunəsidir

**2020-ci ilin oktyabrından 2024-cü ilin may ayına qədər Niderland parlamentində Azərbaycan əleyhinə 26 təxribat xarakterli qətnamə qəbul edilib. Bunu "Report"a müsahibəsində respublikamızın Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev deyib.**



Niderland parlamentariləri hökumətə oxşar ruhda 200-dən çox sual ünvanlayıblar. Səfir bu barədə bildirib ki, bu dövlətin parlamentində heç bir ölkə Azərbaycan qədər "diqqət görmür".

Azərbaycana qarşı təxribat və qərəzli qətnamələrin və hökumətə ünvanlanan sualların sayının belə çoxluğu bəlkə təəccüb doğura bilər. Amma bu qətnamələrin və sualların müəlliflərinin məhz Niderland parlamenti və onun deputatları olduğunu düşünəndə təəccübə yer qalmır. Çünki bu dövlətin rəsmi dairələri nəinki Vətən müharibəsindən sonra, elə ondan əvvəl də Azərbaycana qarşı qeyri-səmimi və qərəzli münasibət göstəriblər.

Niderland dövləti və onun siyasi dairələri xristian və erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycan torpaqlarının işğal edilməsi faktını heç vaxt dilə gətirməyiblər. Bir dəfə də olsun Ermənistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyə çağırmayıblar. Demokratiya və insan hüquqlarından dəm vuran Niderland rəsmiləri Ermənistanın işğalı nəticəsində yüz minlərlə azərbaycanlının yaşamaq və əmlak hüquqlarından məhrum olunmalarını heç vaxt yada salmayıblar.

Bununla belə, hər addımda xristian və erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycanı qərəzli şəkildə tənqid etmək üçün fürsət axtarıblar. Avropa parlamentində ölkəmiz əleyhinə qətnamələrin qəbulunda Niderland parlamentariləri xüsusi canfəşanlıq göstəriblər.

Vətən müharibəsində Azərbaycan yalnız Ermənistanı məğlub etmədi. Azərbaycan həm də Hollandiyanın, Fransanın və digər bu kimi Qərb siyasi mərkəzlərinin timsalında dünya erməniliyini darmadağın etdi. Azərbaycan Qərbin dəstəklədiyi və rəvac verdiyi erməni separatizminin Qarabağda kökünü kəsdi, dünya erməniliyinin Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi mənfur planını iflasa uğratdı.

Ona görə son illərdə Azərbaycana qarşı cəbhə açan, ölkəmizə qərəzini daha da artıran və bu məqsədlə təxribatçı fəaliyyətə rəvac verən dövlətlərdən biri də Niderlanddır. Qəbul edilən 26 sənəd və ya deputatların hökumətə ünvanladıqları 200-dən çox sual isə yəqin ki, son deyil. Bundan sonra da adi kağız parçası qədər əhəmiyyəti olmayan sənədlər qəbul edəcəklər. Fransa kimi, bu ölkənin siyasi dairələri də ölkəmizə qarşı təxribatla məşğul olmaq üçün startda dayanıblar.

Niderland parlamentində 4 ildə Azərbaycan əleyhinə 26 təxribat xarakterli qətnamənin qəbulu Qərbin riyakarlığının bariz nümunəsidir. Əlbəttə, bunların heç biri Azərbaycan üçün əhəmiyyət kəsb etmir. Nəinki Niderlandın bu canfəşanlığı və məkri, ümummiyyətlə, heç bir qüvvə Azərbaycanın yaratdığı reallıqlara təsir göstərə bilməz. Azərbaycan isə Niderlandın da müstəmləkə siyasətinin nəticələrini ifşa edəcək. Necə ki, Fransanı ifşa edir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Azərbaycan onları əfv etməyəcək

### "Qara siyahı"ya salınan parlamentarilər yalnız AŞPA-da nümayəndə heyətimizin mandatı bərpa olunandan sonra ölkəmizə gələ bilərlər



**Bu ilin yanvarında AŞPA-da ölkəmizin nümayəndə heyətinin etimadnamələri təsdiq edilmədi. Qalmaqallı təşəbbüs formal olaraq Almaniyalı deputat Frank Şvabe tərəfindən irəli sürüldü, amma məsələnin arxasında AŞPA rəhbərliyinin özünün durduğu gün kimi ortada idi.**

Bəzi avropalı parlamentarilər AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini sual altına alaraq, onlara qarşı ağlasığmaz ittihamlarla çıxış etdilər. AŞPA-da mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəldi.

Ancaq ötən müddətdə ölkəmizə verilən siyasi səviyyədə vədlərə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin mandatı hələ də bərpa edilməyib.

Bununla əlaqədar rəsmi Bakı Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti əleyhinə səs vermiş şəxsləri "arzuolunmaz şəxslər" siyahısına salıb. Bildirilib ki, AŞPA-da nümayəndə heyətimizin mandatı bərpa olunmayanədək sözügedən şəxslər Azərbaycana gəldikləri təqdirdə, onlara ölkə ərazisinə daxil olmağa icazə verilməyəcək. Həmçinin sözügedən qurumda nümayəndə heyətimizin mandatının bərpa olunmaması səbəbindən AŞPA müşahidəçiləri Milli Məclisə seçkiləri müşahidə etməyə dəvət olunmayıblar.

### Haqlı və prinsipial mövqe

Azərbaycan müstəqil dövlətdir və öz siyasətini hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həyata keçirir. Eyni zamanda da milli maraqlarını qətiyyətlə müdafiə edir. Ancaq ölkəmizin haqlı və prinsipal mövqeyi bəzi Qərb ölkə və təşkilatlarını heç cür qane etmir. Konktret olaraq AŞPA-dan danışsaq, erməni lobbisinin əsirinə, siyasi təzyiq alətinə çevrilmiş bu qurum Azərbaycanın ard-arda qazandığı qələbələri, o cümlədən ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasını, güclənməsini həzm edə bilmir.

AŞPA-nın Vətən müharibəsinə qədərki dövrdə Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməməsi hər kəs tərəfindən bilinən gerçəklikdir. Həmin vaxt bu təşkilat vəzifəsini ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə bitmiş hesab edib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından təşkilatda işğalçının səs hüququ əlindən alına bilərdi, amma belə olmadı. Əksinə daim ölkəmizə qarşı ikili standartlar tətbiq olundu. Azərbaycan Zəfər qazanandan və antiterror əməliyyatları ilə Qarabağda separatizmin kökünü kəsəndən sonra isə AŞPA açıq şəkildə ölkəmizə hücuma keçdi. Təşkilatda Azərbaycanın nümayəndə heyətinin etimadnamələrinin təsdiq edilməməsi də bunun təzahürü oldu.

Bütün bu çirkin fəaliyyətin qarşılığında Azərbaycan tərəfindən atılan tam hüquqa dayanan addımlar isə AŞPA-nı ciddi narahat edir. Buna görədir ki, qurumun rüşvətxor deputatları xorla Azərbaycan haqqında hədlərini aşan fikirlərlə çıxış etməyə başlayıblar.

### Qərəzli, saxta və ikiüzlü siyasətçi

Almaniya Parlamentinin üzvü Frank Şvabe ötən həftə verdiyi müsahibədə guya Azərbaycanın Avropa Şurasında üzvlükdə maraqlı olmadığını bildirib, ölkəmizi Avropa Şurasının təbliğ etdiyi dəyərlərə sadiq olmamaqda ittiham edib. O, AŞPA-nın Milli Məclisə seçkilərdə müşahidəçi kimi dəvət olunmamasına qarşı çıxıb.

Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən buna cavab olaraq bildirilib ki, bir sıra korrupsiya hallarında, qaranlıq biznes əlaqələrində adı hallanan Frank Şvabenin Azərbaycan və ölkə rəhbərliyi barədə səsləndirdiyi fikirlər bu insanın nə dərəcədə qərəzli, saxta və ikiüzlü siyasətçi olduğunu nümayiş etdirir.

O da qeyd olunub ki, AŞPA müşahidəçilərinin Milli Məclisə seçkiləri müşahidə etməyə dəvət olunmamasının yeganə səbəbi Almaniya rəsmiləri tərəfindən daxil olmaqla, ölkəmizə verilən siyasi səviyyədə digər vədlərə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin mandatının hələ də bərpa edilməməsidir.

Şvabenin COP29 çərçivəsində ölkəmizə səfər etmək niyyəti ilə bağlı XİN rəsmisi nəzərə çatdırıb ki, AŞPA-da Azərbaycan nümayəndə heyəti əleyhinə səs vermiş şəxslər "arzuolunmaz şəxslər" siyahısına salınıb. AŞPA-da nümayəndə heyətimizin mandatı bərpa olunmayanədək sözügedən şəxslər Azərbaycana gəldikləri təqdirdə, onlara ölkə ərazisinə daxil olmağa icazə verilməyəcək.

Göründüyü kimi, AŞPA yalan ittihamlarla, müxtəlif bəhanələrlə ölkəmizə təzyiq göstərməyə çalışır. AŞPA-dakı müzakirələr zamanı Azərbaycan nümayəndə heyəti əleyhinə səs vermiş deputatların "arzuolunmaz şəxslər" siyahısına salınması isə Azərbaycan dövlətinin tam hüququdur. Bu həm də onu göstərir ki, müstəqil siyasət yürüdən Azərbaycan milli maraqlarını təhdid edən qüvvələri hər zaman layiqincə yerində oturtmağı bacarır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## *Baş nazir axtarışı:* Solçular Makronun öz səlahiyyətlərini aşdığını düşünürlər

**Siyasi qüvvələrin liderləri ilə məsləhətləşmələrin birinci raundundan sonra E.Makron Yeni Xalq Cəbhəsi (NFP) hökuməti variantını rədd etdi. Solçular bu qərarı sərt tənqid edərək onun Respublika Prezidenti kimi öz səlahiyyətlərini aşdığını düşünürlər.**



AZƏRTAC xəbər verir ki, Fransa siyasi böhrandan çıxa bilmir. Baş nazir axtarışı davam edir. Yelisey sarayının mətbuata açıqlamasında E.Makronun NFP-nin namizədi Lüsi Kastetsin baş nazir olmasını rədd etdiyini bildirib. Qeyd olunub ki, ölkənin institusional sabitliyi bu variantı saxlamamağı tələb edir.

Mətbuata açıqlama göstərdi ki, Emmanuel Makron hakimiyyəti itirməmək üçün mümkün qədər güclü hökuməti seçmək istəyini nümayiş etdirərək neytrallıqdan uzaqlaşır.

"Respublika Prezidenti qeyd etdi ki, ən çox deputatı bir araya gətirən alyansın təklif etdiyi yeganə proqrama və yeganə partiyalara əsaslanan hökumət, NFP dərhal Milli Assambleyada təmsil olunan bütün digər qruplar tərəfindən bloklanmaya məruz qalacaq. Belə bir hökumətə qarşı çıxan 350-dən çox deputatın səs çoxluğu onun fəaliyyət göstərməsinə faktiki mane olacaq", - deyə mətbuata açıqlamada bildirilib.

Yelisey sarayının bu bəyanatları solçular tərəfindən sərt şəkildə tənqid olundu. "Əyilməz Fransa" (La France insoumise - LFİ) partiyasının koordinatoru M.Bompard bunun heç bir mənası olmayan arqument əsasında həyata keçirilən qəbuledilməz anti-demokratik çevriliş olduğunu dedi.

Prezidentin qərarı "institutların məntiqinə qətiyyən uyğun gəlmir, bu, son dərəcə narahatedicidir. Demokratiya prezidentin gözündə heç nə demək deyil və mən bunu son dərəcə təhlükəli hesab edirəm", - deyə NFP-nin namizədi Lüsi Kastets xəbərdarlıq edib.

Ekolojist M.Tondelye isə vəziyyəti tamamilə qeyri-liberal adlandıraraq, seçkilərin nəticələrinin oğurlandığını söyləyib.

"Biz bu seçkinin oğurlanması prosesindəyik... Məni ən çox qəzəbləndirən odur ki, o, sabitlikdən danışır, lakin fransızların dörddə üçü dəyişiklik istəyir. Solçu liderlər üçün baş naziri təyin etmək Emmanuel Makrondan, sonra isə yeni hökuməti senzuradan keçirib-keçirməmək isə parlamentdən asılıdır. Biz bunu sınamağa, bloklanmaya məruz qalmamaq üçün müqavilələr bağlamağa hazırıq. Əgər Lüsi Kastets baş nazir olarsa, o danışıqlar apararaq, parlamentə güvənərək davam etməli olacağını bilir", - deyə o vurğulayıb.

## Makron Fransanı dərin siyasi böhrana sürükləyir

**Fransada parlament seçkilərindən sonra bir-birinə güzəştə getmək niyyətində olmayan üç əsas blokla siyasi vəziyyət donmuş görünür. Kompromis olmadan, növbəti hökumət bütün digər qüvvələrin etirazı ilə üzləşəcək.**

Konstitusiya Emmanuel Makrona vəziyyəti idarə etməyə imkan verir, lakin o, güclü hökumət qeyri-sabitliyi ilə IV Respublikanı xatırladan konfiqurasiyada olacaq. AZƏRTAC xəbər verir ki, konstitusiya tərəfdarları ölkədə davam edən siyasi vəziyyətlə bağlı narahatlıqlarını yerli televiziya kanallarında ifadə ediblər.

Bildirilir ki, Milli Assambleyanı buraxaraq, ölkədə qeyri-sabitliyi yaradan elə E. Makron özüdür. Qanunverici orqana seçkilərin nəticəsində de-fakto institusional qeyri-sabitlik yaranıb və assambleya üç bloka bölünüb. Makron öz institusional missiyasında parlamentin etimadından yararlana bilən və çoxluq tərəfindən qəbul olunan baş nazir təyin etməlidir.

İndi E. Makron özünün yaratdığı xaosdan çıxış yolu tapa bilmir və çətinliklərlə üzləşib. Respublika prezidenti konstitusiyaya əməl olunmasını, dövlət hakimiyyəti orqanlarının müntəzəm fəaliyyətini, eləcə də dövlətin davamlılığını təmin etməlidir. Bugünkü siyasi vəziyyətdə Makron dövləti idarə edə bilmək üçün alternativ əksəriyyət tapmalıdır. Məsələ assambleyada hansı çoxluğun meydana çıxa bilməsidir. Çünki bu çoxluqdan asılı olaraq, Fransa hökuməti islahatlar keçirə, büdcəni qəbul edə və ölkəni irəli apara bilər. Yeni çoxluğun sabitliyi məsələsi təmin edildikdə institusional dövlət çevrilişindən danışmağa heç bir əsas olmur.



Fransa Milli Assambleyasında isə bir-birinə güzəştə getmək niyyətində olmayan üç əsas blokla vəziyyət çətindir. Kompromis olmadan, növbəti hökumət bütün digər qüvvələrin etirazı ilə üzləşəcək. Bu isə onsuz da gərgin olan vəziyyəti daha da gərginləşdirir. E. Makron heç bir halda istefa verməyəcəyini bildirib. Milli Assambleya çıxılmaz vəziyyətdədir, siyasi böhrandan çıxmaq üçün kompromisə gələ bilmir. Müzakirələr konsensual həllə nail olmadan davam etdikcə gərginlik güclənir. Mütləq əksəriyyəti təmin edəcək koalisiya yaradılmazsa, ölkə ciddi böhranla üzləşəcək.

Belə bir koalisiya isə mümkünsüz görünür. Artıq assambleyadakı siyasi qüvvələr bunun qeyri-mümkünlüyünü bildirdilər. Belə vəziyyətdə Makron istefa verməli, yaxud Milli Assambleya yenidən buraxılmalıdır.

V Respublika Konstitusiyasına əsasən (maddə 12) Milli Assambleyanın buraxılması qanunverici orqana seçkilərdən bir ildən sonra baş verə bilər. Aydındır ki, 2025-ci ilin yayından əvvəl, daha dəqiq desək, 7 iyul 2025-ci il tarixinə qədər E. Makron assambleyanı yenidən buraxa bilməz.

# Mərkəzi Gömrük Hospitalında yeni növ narkotik vasitələr, psixotrop maddələr mövzusunda maarifləndirici təlim keçirilib

**Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə gömrük orqanlarının rəhbər vəzifəli şəxsləri üçün "Yeni növ narkotik vasitələr, psixotrop maddələr, hallüsinogenlər və prekursorlar" mövzusunda maarifləndirici təlim keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb üzrə fəlsəfə doktoru, Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov təlimin mövzusunun aktual problemə - narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə və onun yaratdığı problemlərə həsr olunduğunu bildirib. İdarə rəisi Ceyhun Məmmədov narkotik vasitələrin yayılmasına qarşı gömrük işçilərinin apardığı mübarizədə gömrükçülər arasında bu mövzuda maarifləndirmə işinin aparılmasının böyük əhəmiyyət daşıdığını qeyd edib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, tibb üzrə fəlsəfə doktoru, dosent, tibb xidməti polkovnik-leytenantı İsmayıl Əfəndiyev tədbirin rəsmi açılış hissəsində çıxış edərək yeni növ narkotik vasitələr və psixotrop maddələr mövzusunun geniş olduğunu vurğulayıb, təlimdə müzakirə edilən mövzuların təlim iştirakçıları tərəfindən təmsil etdikləri qurumlarda, iş yerlərində insanlara çatdırılacağına ümidvar olduğunu bildirib.




Sonra rəis müavini İsmayıl Əfəndiyev "Ənənəvi və yeni narkotik vasitələr, psixotrop maddələr və hallüsinogenlər: müasir dünyanın qlobal problemi" mövzusunda, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Həkim-Tibb Komissiyasının həkim-psixiatrı, tibb üzrə fəlsəfə doktoru, tibb xidməti baş leytenantı Gülay Məmmədzadə "Psixotrop preparatlar: onların riskləri və fəsadları", Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi, gömrük xidməti leytenantı Şəhla Mirzəzadə "Prekursorlar haqqında nələri bilməliyik?" və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi, gömrük xidməti kapitanı Azad Əhmədov "Saxta dərman vasitələri və onların yayılmasına qarşı mübarizə" mövzusunda təqdimatlarla çıxış ediblər.

Qeyd edək ki, təlim iştirakçılarının mövzu ilə bağlı biliklərinin yoxlanılması, məlumatların mənimsənilməsi səviyyəsini müəyyən etmək üçün pre-test və pro-test keçirilib.

Təlim sual-cavab və maraqlı müzakirələr ilə başa çatıb.

# Almaniya şirkəti ilə bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələlərinə baxılıb

**Energetika Nazirliyində Almaniyanın "Uniper" şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, energetika nazirinin müavini Elnur Soltanovun iştirakı ilə keçirilən görüşdə mövcud əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub. Qaz təchizatı, enerji təhlükəsizliyi, təchizatın şaxələndirilməsi, enerji səmərəliliyi, enerji keçidi, bərpaolunan enerji sahəsində əməkdaşlıq və perspektiv imkanlar müzakirə edilib.

Ölkəmizdə "yaşıl enerji" zonalarının yaradılması, "yaşıl enerji" potensialı, istehsalı və ixracı məsələlərindən bəhs olunub, bu il ölkəmizdə keçiriləcək COP29 tədbiri çərçivəsində Azərbaycanın "yaşıl enerji" sahəsi üzrə hədəflədiyi planlar və təşəbbüslər barədə məlumat verilib.

Müzakirə zamanı "yaşıl hidrogen"in istehsalı və ixracı sahəsinin inkişafı məsələləri nəzərdən keçirilib, "yaşıl hidrogen"in saxlanılması, eləcə də "mavi hidrogen" texnologiyalarının genişləndirilməsi sahəsində əməkdaşlıq imkanları və birgə layihələrin həyata keçirilməsi müzakirə edilib, bu sahədə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olunub.

Görüşdə, həmçinin əməkdaşlıqdan irəli gələn və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanlı alimlər Arxangelskdə keçiriləcək iki elmi forumda iştirak edəcəklər



**Sentyabrın 16-dan 20-dək Arxangelskdə keçiriləcək iki elmi forumda Rusiya, Belarus və Azərbaycandan 300-ə yaxın aparıcı hidrobioloq və malakoloq (molyusklar üzrə mütəxəssislər) iştirak edəcəklər.**

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, bu barədə Rusiya Elmlər Akademiyasının (RAN) akademik N.P.Lavyorov adına Arktikanın öyrənilməsi üzrə Federal Kompleks Mərkəzinin Ural bölməsinin direktoru İvan Bolotov məlumat verib.

Rusiya Elmlər Akademiyasının Hidrobiologiya Cəmiyyəti Konqresinin gündəliyinə Ağ dənizin sahil yaşayış məntəqələrinin ərzaq təhlükəsizliyi, balıq ehtiyatlarından istifadə, çəhrayı qızılbalıq ovu, su bioloji ehtiyatlarının qorunmasında tarazlıq və balıqçılıq təşkilatlarının əməkdaşlarının, ixtioloqların və balıqçılıq təşkilatlarının nümayəndələrinin "dəyirmi masa"sı daxildir.

"Molyusklar: biologiya, ekologiya, təkamül və malakofaunanın formalaşması" adlı beynəlxalq elmi konfransda alimlər molyuskların taksonomiyasına diqqət yetirəcəklər. "Bir çox molyusk qruplarının sistematikası Avrasiya ərazisində, xüsusən Rusiya Federasiyasında və keçmiş SSRİ məkanındakı qonşu ölkələrimizdə tam aydın deyil. Ona görə də əsas vəzifə taksonomiyanı qaydaya salmaq, konkret molyusk qruplarının növ tərkibini aydınlaşdırmaqdır", - deyə agentliyin həmsöhbəti bildirib. Molyusklar ekosistemlərdə mühüm rol oynayır. Məsələn, su molyuskları təbii biofiltr və su mühitinin göstəriciləridir, eyni zamanda onların bəziləri ləziz dəniz məhsulları qrupuna aiddir, fosil molyusklar isə paleontologiyanın ən mühüm obyektləridir; onların minerallaşmış qabıqları fosil şəklində yaxşı saxlanılır və "geoloji saatlar" kimi xidmət edir. Bundan əlavə, iqlim dəyişikliyi səbəbindən hazırda müxtəlif bölgələrə molyuskların aktiv şəkildə yayılması müşahidə olunur.

Bolotov əlavə edib: "Birincisi, digər bölgələrdən yayılan invaziv növlərin olması zəruridir və bunların hansı növlərin olduğunu dəqiq başa düşmək çox vacibdir. İkinci məqama gəlincə, bir çox molyusklar parazitlər üçün aralıq ev sahibi kimi çıxış edirlər. Müəyyən su hövzələrində hansı növlərin yaşadığını bilsək, insanlar, ev heyvanları və balıqlar üçün parazitologiya baxımından riskləri qiymətləndirə bilərik".

# *Ekspert:* "Yaxın 10 ildə Xəzərdə suyun səviyyəsi azı 1 metr azala bilər"

**Yaxın 10 ildə Xəzər dənizinin səviyyəsi daha 1 metr aşağı düşə bilər. AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, bu fikri Rusiya Federasiyası Dövlət Elmi Mərkəzinin, Ümumrusiya Elmi-Tədqiqat Balıqçılıq və Okeanoqrafiya İnstitutunun Volqa-Xəzər bölməsinin rəis müavini Sergey Şipulin deyib. O əlavə edib: "Biz Xəzər dənizinin səviyyəsi ilə bağlı proqnozlar barədə çox diqqətlə danışmalıyıq. Əgər dənizin su balansının dinamikası dəyişməsə, o zaman yaxın onillikdə Xəzərdə suyun səviyyəsində ən azı 1 metr azalma müşahidə edəcəyik".**

Rusiyalı ekspertin sözlərinə görə, Xəzər dənizinin səviyyəsi müxtəlif dövrlərdə dəfələrlə qalxıb və aşağı düşüb. Son 200 ildə səviyyənin dəyişmə diapazonu təxminən 4 metr, son 500 ildə isə təxminən 7 metr olub. Eyni zamanda, dəniz səviyyəsi 1977-ci ilə qədər azalıb, 1990-cı illərin ortalarına qədər isə onun səviyyəsi yenidən qalxıb. Sonrakı illərdə və bu günə qədər Xəzər dənizinin səviyyəsində təkrarən azalma müşahidə olunur.

S.Şipulin diqqəti dənizin dayazlaşmasının su anbarının balansının və çayların axınının dəyişməsi, o cümlədən dənizdə və onun akvatoriyasında yağıntıların miqdarında və buxarlanma həcmində oynamalar, habelə hövzələrə axan çayların sululuğu ilə əlaqədar olduğuna diqqət çəkib. Eyni zamanda, Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və onun sahəsinin quru ərazilərlə yerdəyişməsi dənizin ekosistemində və insanların təsərrüfat fəaliyyətində güclü dəyişikliklərə səbəb olur. Xüsusən, Xəzər dənizinin şimal hissəsində, Volqa çayının deltasının qarşısındakı kommersiya balıqlarının qidalanma sahəsi daralır.

Ekspert yekunda qeyd edib: "Bizim dəniz səviyyəsindəki dəyişikliklərə təsir etmək imkanımız çox azdır. Daha doğrusu, bir tərəfdən tədqiqatlar aparmaq, modellər qurmaq və dəniz səviyyəsinin dəyişməsi ilə bağlı daha etibarlı uzunmüddətli proqnozlar əldə etmək barədə düşünməliyik. Digər tərəfdən, Xəzər dənizinin səviyyəsinin dəyişməsi nəticəsində yaranan təhlükə və risklərin qarşısının alınması üçün zəruri tədbirlər hazırlamaq lazımdır".



# Azərbaycan ilə Serbiya arasında ikitərəfli turizm əlaqələri müzakirə olunub

**İki ölkə arasında turizm sahəsində ikitərəfli əməkdaşlıq perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində aparılan işlərin genişləndirilməsi, eləcə də turizm təhsili üzrə vacib olan məlumatların qarşılıqlı mübadiləsi məsələləri Belqradda Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin Serbiya Respublikasının turizm və gənclər naziri Hüseyn Memiç ilə görüşündə müzakirə olunub.**



Agentlikdən AZƏRTAC-a bildirilib ki, görüş çərçivəsində Fuad Nağıyev Hüseyn Memiçə noyabr ayında Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) tematik proqramına ilk dəfə turizm mövzusunun inteqrasiya edilməsi haqqında məlumat verib.

Fuad Nağıyev həmkarını "Turizm günü" çərçivəsində keçiriləcək "Turizm sahəsi üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin yüksəksəviyyəli 1-ci Görüşü"ndə iştirak etməyə dəvət edib.

Azərbaycan və Serbiya Turizm Bürolarının rəhbərlərinin də iştirakı ilə baş tutmuş görüşün sonunda "Azərbaycan Turizm Bürosu ilə Serbiyanın Milli Turizm Təşkilatı arasında turizm sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

Həmçinin Fuad Nağıyevlə Azərbaycan-Serbiya Hökumətlərarası Komissiyasının həmsədri - mədəniyyət naziri Nikola Selakoviç arasında görüş keçirilib.

Görüşdə mədəniyyət və turizm sahələrinin bir-biri ilə sıx bağlı olduğu, bu sahələr üzrə iki ölkə arasındakı mövcud əməkdaşlığın genişləndirilməsinin qarşılıqlı turist axınına müsbət təsir göstərəcəyi vurğulanıb.

Görüşdə həmçinin Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev də iştirak edib.

Nümayəndə heyəti tərəfindən Ümummilli Lider Heydər Əliyevin Belqradın "Taşmaydan" parkında yerləşən abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb və onun əziz xatirəsi ehtiramla yad edilib. Eləcə də 1999-cu ildə Belqrad şəhərinin bombalanması zamanı həlak olmuş uşaqların xatirəsinə həsr edilmiş abidə və Serbiyanın görkəmli yazıçısı Milorad Paviçin heykəli ziyarət olunub.

# Naxçıvan şəhərində 50-dən çox işəgötürənin iştirakı ilə əmək yarmarkası baş tutub

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 50-dən çox işəgötürənin iştirakı ilə əmək yarmarkası keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yarmarkada muxtar respublikanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə çoxsaylı iş yeri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını deyib.

Qeyd edilib ki, muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətə davamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir. Bu baxımdan gənclərlə yanaşı, xüsusi ixtisası və ya peşəsi olmayan, əmək qabiliyyətli şəxslərin məşğulluğunun təmin edilməsi də mühüm əhəmiyyət daşıyır. Əmək yarmarkaları bu kateqoriyadan olan şəxslərin işlə təmin olunması istiqamətində vacib məşğulluq tədbirlərindən biridir.

Yarmarkada işsiz və işaxtaran vətəndaşlara 50-dən çox dövlət və özəl müəssisədən ümumilikdə 350-dən çox vakansiya təqdim olunub. Vakansiyalar üzrə müraciət edənlərdən CV-lər qəbul olunaraq nəzərdən keçirilib. Onların həmin vakansiyalar üzrə məşğulluqlarının təmin edilməsi üçün işlərə başlanıb. Həmçinin işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq tədbirləri barədə də məlumat verilib, müraciət edən şəxslərlə ilkin sorğular aparılıb.

# Avropada əhalinin yoxsul təbəqəsi ekstremal istilərdən daha çox əziyyət çəkir

**Son illərdə Avropada qızmar temperatur on minlərlə insanın ölümünə səbəb olub. Lakin ölənlərin sayı artdıqca, tədqiqatçılar müəyyən edirlər ki, bir qrup həddindən artıq istidən qeyri-mütənasib şəkildə təsirlənir. Bu, əhalinin yoxsul təbəqəsidir.**

AZƏRTAC xəbər verir ki, ispan alimləri ekstremal istilərin Madridin 17 bölgəsinə necə təsir etdiyini tədqiq ediblər. Onların araşdırması göstərib ki, istilik dalğaları yalnız üç sahədə - ev təsərrüfatlarının gəlirlərinin orta səviyyədən aşağı olduğu yerlərdə ölümcül təsir edib. Daha sonra İspaniyadakı icmalara baxaraq oxşar təhlil aparılıb və nəticə bənzər olub.

Madrid Universitetinin professoru Xulio Diaz Ximenezin sözlərinə görə, istilik və həssaslığa gəldikdə, bu məsələdə gəlir səviyyəsi əsas amildir.

Aztəminatlı insanlar tez-tez keyfiyyətli mənzil əldə etməkdə çətinlik çəkirlər, bir çoxları izdihamlı, zəif havalandırılan və daha isti evlərdə yaşayırlar. Bəziləri adekvat səhiyyə xidmətinə müraciət etməkdə çətinlik çəkir, həddindən artıq istilərin daha da pisləşə biləcəyi şərtlərə məruz qalır, digərləri isə müntəzəm olaraq yüksək temperaturların olduğu kənd təsərrüfatı və tikinti sektorlarında işləyirlər.

Hətta kondisionerlər olsa belə, aztəminatlı insanların onlardan istifadə etmək imkanı yoxdur. Bu ilin əvvəlində "Save the Children" təşkilatı İspaniyada hər üç uşaqdan birinin evlərini sərin saxlaya bilmədiyi barədə xəbərdarlıq etmişdi. Hesabatda bunun 2 milyondan çox uşağın psixi və fiziki sağlamlığına son dərəcə zərərli təsir göstərə biləcəyi qeyd edilib.




İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) iqlim dəyişikliyinin azaldılmasına dair hesabatının aparıcı müəllifi Yamina Sahebin sözlərinə görə, istiləşmənin dünyanın digər hissələrinə nisbətən daha sürətlə baş verdiyi Avropada mövzu ilə bağlı müzakirələr ləng gedir. O, bu ay nəşr olunan tədqiqatın nəticələrinə diqqət çəkib; karbon qazı ilə çirklənmənin yaratdığı isti hava keçən il Avropada 50 minə yaxın insanın ölümünə səbəb olub. Saheb əlavə edib: "Bunun son dərəcə təcili məsələ olduğuna dair həyəcan təbili çalmalıyıq".

2023-cü il tarixdə ən isti il olub. Alimlər 2024-cü ilin bu rekordu təkrarlayacağını gözləyirlər. Alimlər siyasətçiləri və siyasi gündəm yaradanları qapalı məkanların soyudulmasını ictimai nəqliyyat və ya küçələrin təmizlənməsi xidməti kimi qəbul etməyə çağırır.

İspan alimi Ximenez sual edir: "Nə üçün iqlim dəyişikliyinə ən az cavabdeh olan insan qrupları onun təsirlərindən daha çox təsirlənir?"

# Ağcabədi rayonunda təsərrüfatların 90 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Onlayn Azərbaycan" layihəsi çərçivəsində Ağcabədi rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Ağcabədi şəhərində şəbəkənin tikintisi başa çatmaq üzrədir. Şəhər mərkəzində 12759 təsərrüfatdan 1097 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır.

Rayonun Ağabəyli, Cəfərbəyli, Xocavənd, Aşağı Afşar, Pərioğullar, Hüsülü, Rəncbərlər, Təzəkənd, Hacıbədəlli, Şahsevən Təzəkənd, Şahsevən, Minəxorlu, Muğanlı, Köyük, Yeni Qaradolaq, Kəbirli, Aran, Mehrablı, Qaradolaq, Nəcəfqulubəyli, Şənlik, Gələbədin, Qiyamədinli, Qaravəlli, İmamqulubəyli, Şərəfxanlı, Şahmallar, Şotlanlı, Kəhrizli, Bala Kəhrizli, Boyat, Hacılar, Biləğan, Qaraxanlı, Sarıcalı, Taynaq, Poladlı, Arazbar, Mirzəhaqverdili, Kürdlər, Sarvanlar, Yuxarı Qiyamədinli kəndlərində və Taxtakörpü, Hindarx qəsəbələrində 19189 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb.

Ümumilikdə rayonda mövcud təsərrüfatların 90 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 7166 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam etdirilir.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

Qeyd edək ki, ümumilikdə 2,8 milyon təsərrüfat genişzolaqlı internetlə əhatə olunub. Bu, ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 95,5 faizini təşkil edir.




# AZERBAIJAN COP29

## Yaşıl dünya naminə həmrəylik ili 2024



**◆ Bakı COP29-a hazırlaşır**

# Paytaxtın ən hündür yaşıl məkanı

**Bakının müasir simvollarından hesab olunan "Alov qüllələri"nin yaxınlığında yaşıllıqlar içində Xəzər dənizinə açılan möhtəşəm bir mənzərə var. Paytaxt sakinləri və qonaqların daha çox üz tutduqları məkandır.**

**Burada dayanıb saatlarla Bakının əsrarəngiz gözəlliyinə tamaşa etmək insana böyük zövq yaşadır.**

**Hər tərəfi yaşıllıqlar içərisində olan və heç bir mövsümdə libasını dəyişməyən bu məkan "Çəmbərəkənd" parkıdır.**

**Paytaxtın yaşıl məkanlarından biri hesab olunan bu parkda minlərlə bitki var.**

**Bura Azərbaycanın "Yaşıl dünya naminə həmrəylik ili"nə layiqli töhfədir.**







## Prezidentin təşəbbüsü ilə...

Paytaxt Bakı bu il ən böyük və vacib beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlaşır. Bu məqsədlə şəhərimizdə yenidənqurma, abadlıq işləri geniş vüsət alsa da, ümumilikdə Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyaya əsasən, Bakının yaşıl mərkəzlərdən birinə çevrilməsi istiqamətində davamlı tədbirlər görülür.

İqlim dəyişikliklərinin yaratdığı mənfi təsirlər heç bir ölkədən yan keçmir. Odur ki, planetimizi təhdid edən problemlərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi çox vacibdir. Bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə öndə gedən təşəbbüskar ölkələrdən biri məhz Azərbaycandır. Sağlam həyat, sağlam gələcək naminə reallaşdırılan tədbirlərin, atılan addımların nəticəsidir ki, Azərbaycan COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi etmək şansı qazanıb. Ölkəmizdə elə bu fürsətdən istifadə edilərək həmin yöndə işlər aparılır. Beynəlxalq konfrans çərçivəsində Bakı həmçinin dünya ölkələrinin yaşıl dünya naminə səylərini birləşdirməsi üçün mərkəzə çevriləcək. Bu baxımdan 2024-cü ilin Prezident İlham Əliyev tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması təsadüfi deyil.

Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün görülən işlərin miqyası ilbəil daha da artırılır. Son illərdə şəhərdə aparılan yaşıllaşdırma işləri, yeni parkların, xiyabanların, istirahət güşələrinin salınması genişləndirilir, mövcud olanlarda isə yenidənqurma, abadlıq işləri görülərək yenidən paytaxt sakinlərinin və qonaqların istifadəsinə verilir.

Bu gün üz tutduğumuz "Çəmbərəkənd" parkı Prezident İlham Əliyevin təşəbbüsü ilə Səbail rayonunda salınan yaşıl məkanlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.

Dağlı məhəlləsi ilə həmsərhəd olan keçmiş Bakı məhəllələrindən biri hesab olunan "Çəmbərəkənd" sözü Çəmbərə - dairə, əyri, halqa və kənd birləşməsindən düzəlib, "dairəvari, qövsvari kənd" mənasını verir. Kənd ətrafa nisbətən bir qədər yüksəklikdə, dairəvi sahədə yerləşdiyindən belə adlanıb. Ərazinin adı isə burada məskunlaşmış, əsasən balıq duzlamaq, neft, mazut ixrac etmək üçün çəmbərlər hazırlayan ustaların peşəsi ilə əlaqədar yaranıb. Çəmbərəkəndin sakinləri əsasən heyvandarlıq və əkinçiliklə məşğul olublar.





## Hər fəsildə yaşıl diyar

Həmin məhəllənin adını daşıyan hazırda 4 hektara yaxın sahəsi olan park uzun müddət istifadəsiz qalan ərazidə salınıb. Parkın açılışı Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin iyun ayında baş tutub. İstirahət parkında yaşıllaşdırma işləri aparılıb. Bizə verilən məlumata görə, ərazidə müxtəlif növlərdən olan 50 mindən çox bitki var ki, onların da çoxu həmişəyaşıl olanlardır. Elə buna görədir ki, ilin hansı mövsümündə ziyarət etməyinizdən asılı olmayaraq, yamyaşıl məkanda fəsilləri izləyə bilərsiniz. Burada həmişə bahar ovqatı yaşanır.

Təbii ki, bağı, bağçanı yaşıl saxlamaq böyük zəhmət tələb edən işdir. Parkı gəzərkən onun daim yaşıl qalmasının səbəbini aydın görmək olur. Səhər saat 8-dən ərazidə olan bağbanlar, digər işçilər bitkiləri suvarır, onlara qulluq edirlər. Nəticədə ziyarətçilər belə gözəl təbiətdən həzz alır, bol oksigenli havanı ciyərlərinə çəkərək xoşallanırlar.

"Çəmbərəkənd"də paytaxt sakinlərinin və turistlərin istirahəti, asudə vaxtlarını keçirmələri üçün hər bir şərait yaradılıb. Yay aylarında valideynlər övladları ilə birlikdə üz tutduğu məkanlardan olan parkda piknik üçün icazə də var. Bundan başqa park söhbətgahlar, oturacaqlarla da təmin olunub.

Balacaların əyləncəsi nəzərə alınaraq onlar üçün xüsusi guşə də yaradılıb. Son illər Bakıda yeni salınan, eyni zamanda təmir olunan parklarda, istirahət yerlərində insanları sağlam həyat tərzinə təşviq, fiziki hərəkətlər etmək üçün idman qurğuları quraşdırılıb. Bu da xüsusən ətraf ərazidə yaşayan sakinlərin idmanla məşğul olması üçün böyük əhəmiyyətə malikdir.

## 147 metrlik körpü, Xəzər mənzərəli terraslar...

Parkın gündüz mənzərisi başqa, gecə mənzərəsi isə tamam başqadır. Parkda hava qaraldıqdan sonra müasir işıqlandırma sistemləri ilə nura qərq edilən Yeni il yolkalarını xatırladan ağaclara rast gələ bilərsiniz. Bundan başqa, işıqlı şəhərin gözəl mənzərəsini, həmçinin işıqlandırma üzrə birinci yerə layiq görülən 182 metrlik "Alov qüllələri"nin üzərindəki animasiyon mənzərəni daha yaxından müşahidə etmək olur. Bütün bunlara görədir ki, "Çəmbərəkənd" həm yerli, həm də xarici turistlərin ən çox üz tutduğu məkanlardan biridir.

"Çəmbərəkənd"də piyadaların rahat hərəkəti üçün 1200 metr uzunluğunda yollar salınıb. Burada fontan da quraşdırılıb. Parkın ən diqqətçəkən elementlərindən biri isə estakada üzərində piyadalar üçün salınmış 147 metr uzunluğundakı körpüdür. Körpü boyunca gəzinti həm yaşıllıqları yuxarıdan seyr etməyə, həm də şəhəri daha yüksəklikdən görməyə imkan verir.

Parkın ən sevimli və hər kəsin toplaşmağa can atdığı yeri isə şəhər mənzərəli iki terrasdır. Terrasda oturaraq saatlarla Xəzəri izləmək olar. Elə rəssamlar, fotoqraflar da rəsm, şəkil çəkmək üçün ən çox bu guşəni seçirlər. Əsasən də rəssamların burada molbertlərini quraraq şəhərin möhtəşəm mənzərəsini çəkdiklərinin çox müşahidə edildiyi deyilir.









Biz bu gözəl mənzərəni seyr etməkdən doymasaq da, parkdan ayrılmaq məcburiyyətindəyik. Axı qarşıda paytaxtın digər yaşıl məkanları da bizi gözləyir. Yolumuz hələ çox yaşıllıqlardan keçəcək...

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***







# Bakıda su idarəetmə sistemlərinin iqlimə dayanıqlı kənd təsərrüfatında roluna dair konfrans keçirilib



**Avqustun 28-də Bakıda "Su idarəetmə sistemlərinin iqlimə dayanıqlı kənd təsərrüfatında rolu: COP29" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamının icrası, cari ildə Azərbaycanın evsahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində həyata keçiriləcək tədbirlərin təşkili və bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin Tədbirlər Planına uyğun olaraq təşkil edilib. Konfrans BMT-nin Azərbaycandakı Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi ilə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) birgə təşkilatçılığı ilə keçirilib.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, qlobal iqlim dəyişikliyi aqrar sahəyə daha çox təsir edir. Onun sözlərinə görə, iqlim dəyişikliyi kənd təsərrüfatı sahəsinin qarşısında yeni çağırışlar formalaşdırır. Azərbaycan hökumətinin kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmək üçün bütün tədbirləri gördüyünü deyən İlhamə Qədimova vurğulayıb ki, ölkəmizdə iqlim dəyişikliyinin aqrar sahəyə mənfi təsirlərini azaltmaq, mövcud torpaq və su resurslarından daha səmərəli istifadə etmək üçün müasir texnologiyalardan istifadə genişlənir, iqlimə uyğun kənd təsərrüfatı sistemlərinin inkişafına dəstək verilir. Yeni texnologiyalar və rəqəmsal həllərin tətbiqi iqlim dəyişikliklərinin təsirlərini minimuma endirməyə, torpaq və su resurslarından davamlı və düzgün istifadəyə imkan verir. Aqrar sahədə tətbiq olunan yeniliklər, innovativ texnikalardan geniş istifadə məhsuldarlığı dəfələrlə artırır, torpaq və su resurslarından daha səmərəli istifadə olunur, məhsulun maya dəyəri azalır, fermerlər daha çox gəlir əldə edirlər.

Tədbirdə çıxış edən Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov deyib ki, bu gün dünyada su və torpaq resurslarının istehsal imkanları son həddədir və mövcud tələbatı çətinliklə ödəyir. Nazir müavini əlavə edib ki, dünya əhalisinin ərzağa olan tələbatının sürətlə artması torpaq və su resurslarına təzyiqi artırır. Vüqar Kərimov iqlim dəyişikliyi fonunda kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi istiqamətində ölkəmizdə həyata keçirilən kompleks tədbirlər barədə konfrans iştirakçılarına ətraflı məlumat verib.

Dövlət Su Ehtiyatları Agentliyi və COP29 Təşkilat Komitəsinin nümayəndələri öz çıxışlarında iqlim dəyişiklikləri fonunda su ehtiyatlarının səmərəli idarə olunmasının vacibliyini qeyd edərək bu sahədə müasir texnologiyaların tətbiqinin əhəmiyyətinə toxunublar.

FAO Azərbaycan Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Nasar Həyat ərzaq təhlükəsizliyi və davamlı su təminatı üçün kənd təsərrüfatında idarəolunan suvarma sistemlərinin roluna diqqət çəkib. O, iqlim dəyişikliklərinin su ehtiyatlarına mənfi təsirləri, bu sahədə FAO-nun qlobal, regional və milli səviyyədə tətbiq etdiyi yanaşmalar və həyata keçirilən tədbirlərlə bağlı məlumat verib.

Müzakirələrdən sonra konfransda iqlim dəyişikliklərinin su ehtiyatlarına təsiri, suyun düzgün paylanması və su itkisini minimuma endirmək üçün yeni texnologiyaların tətbiqi mövzusunda təqdimatlar keçirilib. Tədbirdə su ehtiyatlarının səmərəli istifadəsi, ərzaq təhlükəsizliyi və davamlı su təminatı üçün kənd təsərrüfatında idarəolunan suvarma sistemlərinin rolu, iqlim dəyişikliklərinin su ehtiyatlarına təsiri, müasir suvarma sistemlərinin qurulması və digər aktual məsələlər müzakirə olunub. Həmçinin yerli və xarici mütəxəssislər torpaqların mühafizəsi, biomüxtəlifliyin qorunması, torpaq çirklənməsinin qarşısının alınması, su resurslarından səmərəli istifadə və effektiv torpaq idarəçiliyinin qurulması istiqamətində müzakirələr aparıblar.

# "Son 5 ildə suvarma sistemlərinin qurulmasına 93,3 milyon manat subsidiya ayrılıb"

**Azərbaycanda intensiv kənd təsərrüfatının inkişafı üçün dövlət dəstəyi mövcuddur. Məsələn, müasir suvarma sistemlərinin tətbiqini stimullaşdırmaq üçün müxtəlif güzəştlər və subsidiyalar tətbiq olunur. Son 5 ildə 38,2 min hektar ərazidə suvarma sistemlərinin qurulmasına 93,3 milyon manat subsidiya ayrılıb.**

AZƏRTAC xəbər verir ki, bunu "Su idarəetmə sistemlərinin iqlimə dayanıqlı kənd təsərrüfatında rolu: COP29 dəyirmi masa müzakirələri" adlı tədbirdə kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib.

Nazir müavini qeyd edib ki, fermerlərlə sıx əməkdaşlıq etmək və onların iqlimə davamlı yanaşmaları mənimsəmələrinə dəstək vermək isə bu prosesi sürətləndirə bilər. Onun sözlərinə görə, fermerlərin su ehtiyatlarını səmərəli istifadə etmələri və iqlim dəyişikliklərinə uyğunlaşmaları, sektorun davamlı inkişafı üçün həlledici addımlardır. Bu istiqamətdə fəaliyyətlər COP29 zamanı - noyabrın 19-da keçiriləcək Ərzaq, Kənd Təsərrüfatı və Su Günündə təqdim ediləcək "Harmoniya Təşəbbüsü"nün əsas hədəflərindən biridir. "Bu təşəbbüs, kənd təsərrüfatı icmalarına və fermerlərə müasir su idarəetmə sistemləri və iqlimə davamlı yanaşmaları tətbiq etmək üçün lazımi dəstəyi təmin etməyi qarşısına məqsəd qoyur", - deyə İ.Qədimova qeyd edib.




# Prezident inhisarçılığa qarşı mübarizəni öz nəzarətinə götürdü

**Xəbər verildiyi kimi, dövlət başçısının fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb.**

Sənəddə müəyyən edilib ki, yeni yaradılan agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Təsərrüfat subyektlərinin hökmranlıq və monopoliya hərisliyinin qarşısını kəsəcək agentlik öz işini inhisarçılığa qarşı mübarizədə dövlət tənzimləməsinin effektivliyini yüksəltmək, qiymətlərlə manipulyasiya edərək rəqabətin məhdudlaşdırılması və istehlakçıların mənafelərinin pozulması hallarının qarşısını almaq istiqamətində quracaq ki, bu da iqtisadiyyatın "qara yarası" sayılan inhisarçılığın qarşısında böyük ciddi sədd olacaq.

Yeri gəlmişkən bildirək ki, monopoliya yunan mənşəli sözdür. İki sözün birləşməsindən yaranıb - monos-tək, poleo-satıram deməkdir. Düzdür, ana dilimizdə əsasən "monopoliya" sözünün alternativi (və ya tərcüməsi) olan "inhisar" sözü işlədilir. Amma maraqlıdır, inhisar da "tək əl" və ya "tək əlçilik" mənasını verir ki, mahiyyətcə elə bu da monopoliya deməkdir. İnhisar kapitalın təmərküzləşməsi və mərkəzləşməsi nəticəsində meydana gəlir. İnhisarşılığı yaratmaqda məqsəd təklif olunan xidmətlər və istehsal edilən əmtəə üzərində tam nəzarətə sahib olmaq və daha çox maddi qazanc götürməkdir.



İnhisarçılıq olan yerdə azad rəqabətdən və nəticədə inkişafdan söhbət gedə bilməz, bunlar bir-birinə ziddir. Bir mərkəzdən idarə edilən bazara azad qiymət təklif edən birinin daxil olması qəbul edilmir, çünki buna inhisarçı imkan vermir. İnhisarçılıq olan yerdə hökmran şirkətin və ya digər qurumun istehsal etdiyi mallardan başqa sahibkarların istehsal etmək imkanları məhdudlaşdırılır və sonda əlindən alınır. Nəticədə azad rəqabət mütləq şəkildə aradan qaldırılır, qiymətlər bir fiziki və ya hüququ şəxs tərəfindən şişirdilir, ölkədə istehsal sahələri iflic vəziyyətinə düşür. Sahibkarlıq fəaliyyəti üçün real şərait meydana gəlmir və buna cəhdlər olsa da, süni maneələr yaradılır. Ən pisi isə odur ki, orta və kiçik sahibkarlıq sıradan çıxarılır, nəticədə minlərlə işsiz ordusu meydana gəlir.

Bu mənzərə təəssüf ki, nə qədər mübarizə aparılsa da, Azərbaycanda da müşahidə edilir. Ölkəmizdə inhisarçılıq hiss olunacaq dərəcədə idxal və ixracda, istehsalda və istehlak bazarında, ayrı-ayrı xidmət sahələrində özünü göstərir. Bizdə də inhisarçılığın fəsadları iqtisadiyyatın inkişafını ləngidir, dövlətin sosial siyasətinin səmərəsini azaldır. Ara-sıra rastlaşdığımız süni qiymət artımı məhz inhisarçılığın nəticəsi deyilmi?

Söz düşmüşkən. Azərbaycanda qiymətlərin haqsız rəqabət əsasında formalaşdırılması qanunsuz sayılır, yəni qiyməti artırmaq üçün sövdələşmələr cinayət hesab olunur və bu sübut edilərsə, sövdələşən subyektləri ciddi cəza gözləyir. Misallar da var. Buna baxmayaraq, ölkədə inhisarçılığın kökünü kəsmək üçün daha ciddi və daha qəti tədbirlər görmək lazımdır. Əks halda, dövlət başçısı inhisarçılığa qarşı mübarizə aparan qurumun statusunun dəyişdirilməsi ilə bağlı fərman imzalamazdı. "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərman bir daha sübut edir ki, Prezidentin inhisarçılığa qarşı mövqeyi qətiyyətli və barışmazdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qarabağ Regional Peşə Hazırlığı Mərkəzində bu il 400 şəxs peşə kurslarına cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Bərdə şəhərində yerləşən Qarabağ Regional Peşə Hazırlığı Mərkəzində bu il 400 şəxs peşə hazırlığı kurslarına cəlb olunub.**

İşəgötürənlərlə birgə təşkil edilən kurslar genişprofilli dəzgahçı, proqramla idarə olunan avadanlıqların operatoru, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, mebel ustası, ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi, xəzinədar, tikiş avadanlıqlarının operatoru və s. peşələri əhatə edir.

Ötən ilin avqust ayında açılışı olan Mərkəzdə 7 emalatxana, 8 sinif və instruksiya otağı, Peşəyönümü və Karyera Planlaması Mərkəzi, inzibati və texniki otaqlar fəaliyyət göstərir. Burada 48 peşə istiqaməti üzrə tədrisin təşkili üçün imkanlar yaradılıb.

Təlimlər xüsusi meyarlar üzrə qiymətləndirilmiş mütəxəssislər tərəfindən həyata keçirilir. Hazırda Mərkəzdə 100-dən çox şəxs peşə hazırlığı kurslarında təlim keçir.

# Azərbaycan Ümumrusiya Dəniz Konqresində təmsil olunacaq

**Sentyabrın 24-25-də Moskvada Ümumrusiya Dəniz Konqresi keçiriləcək. Tədbir Rusiya Federasiyasının Sənaye və Ticarət və Nəqliyyat nazirlikləri, "FSUE Rosmorport", Rusiya Gəmiçilik Palatası və Dəniz Ticarət Limanları Assosiasiyasının dəstəyi ilə təşkil ediləcək.**

AZƏRTAC təşkilatçılara istinadla xəbər verir ki, konqresin işgüzar və sərgi proqramında 2000-dən çox iştirakçının, o cümlədən dəniz sənayesinin aparıcı şirkətlərinin 300-dən çox yüksəkvəzifəli şəxslərinin, 15 ölkədən - Azərbaycan, Türkiyə, Çin, Hindistan, Vyetnam, İran, Myanma, BƏƏ, Malayziya, Belarus, Qazaxıstan, Türkmənistan və digərlərindən 150-dən çox nümayəndənin iştirakı gözlənilir.

Auditoriyanın əksəriyyətini dəniz texnikası istehsalçıları və təchizatçıları, gəmiqayırma və gəmi təmiri müəssisələrinin nümayəndələri təşkil edəcək. Konqresdə limanların, gəmiçilik, balıqçılıq və nəqliyyat-logistika şirkətlərinin, konstruktor bürolarının, layihə, elm və təhsil təşkilatlarının rəhbərləri və mütəxəssisləri iştirak edəcəklər. Ümumilikdə, 200-dən çox məruzəçinin iştirakı ilə 25-dən çox işgüzar tədbir planlaşdırılır. Sessiyaların mövzuları müasir gündəliyə uyğun tərtib olunub və texnoloji suverenlik kontekstində donanmanın yenilənməsindən tutmuş sənayenin rəqəmsallaşmasına qədər ən aktual məsələlərin geniş spektrini əhatə edəcək.

Bundan əlavə, hibrid formatda "Rusiya-Hindistan" və "Rusiya-Çin" beynəlxalq biznes dialoqları, rusiyalı və xarici ekspertlərlə telekonfransların təşkili də nəzərdə tutulur. Tədbirdə çıxışların ingilis, Çin və ispan dillərinə tərcüməsi təmin edilir.

Ümumrusiya Dəniz Konqresi Rusiya Federasiyasının dəniz və çay nəqliyyatı sənayesinin fəaliyyətində ən aktual məsələlərin müzakirəsi üçün səlahiyyətli platformadır. Bu, işgüzar əlaqələri inkişaf etdirmək, təcrübə mübadiləsi aparmaq və dəniz sənayesi təşkilatlarının imkanlarını təqdim etmək üçün yaxşı imkandır. Tədbirin əsas məqsədləri Rusiyanın ən böyük dəniz regionlarının populyarlaşdırılması və regionlararası əməkdaşlığın gücləndirilməsi, Rusiya Federasiyasının bütün subyektlərinin müəssisələri arasında nəqliyyat və sənaye əməkdaşlığının inkişafı, dost ölkələrlə işləmək üçün əlverişli şəraitin yaradılması, dəniz sənayesinin ən aktual problemləri və effektiv həll yollarının inkişafıdır.




# Əlilliyi olan şəxslərə 64 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-iyul aylarında əlilliyi olan şəxslərə 64 min reabilitasiya vasitəsi verilib.**

Onlardan 4,5 mini təkərli oturacaq (o cümlədən 148-i mühərrikli təkərli oturacaq), 1434-ü aşağı və yuxarı ətraf protezi, 1527-si eşitmə aparatı, 1602-si qoltuqaltı və dirsəkaltı ağac olub.

Həmçinin əlilliyi olan şəxslərə 2106 cüt protez ayaqqabı, 3581 cüt ortopedik ayaqqabı, 51 korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Bu ilin 7 ayında ümumilikdə 8,5 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitəsi ilə təmin edilib.

# Azərbaycan nefti 3 dollara yaxın bahalaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,89 dollar və ya 3,58 faiz artaraq 83,76 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Neft layihələri: əsas şərtlərdən biri ətraf mühitə ziyan vurmamaqdır



**Neft və qaz ehtiyatlarına sahib olduğu üçün hər hansı bir ölkəni heç kəs səbəbsiz günahlandıra bilməz. Çünki əsas məsələ onlardan necə istifadə etməkdir. Prezident İlham Əliyev son aylar ölkəmizdə və xaricdə keçirilən bir sıra mötəbər tədbirlərdə bu fikirləri dönə-dönə vurğulayıb.**

Təəssüf ki, hazırda dünyanın müxtəlif yerlərindən olan bəzi dairələr neftlə və qazla zəngin ölkələrin üstünə "hücum çəkirlər" ki, atmosferi çirkləndirən, ekologiyanı korlayan sizsiniz. Ölkəmizdən söz gedərsə, deməliyik ki, bizdə bu sərvət müxtəlif vasitələrlə cəmiyyətə yönəldilib, inklüziv cəmiyyət qurulub, yoxsulluq 50 faizdən 5 faizə endirilib. Xarici borc təxminən 100 faizdən 7,7 faizə düşüb. Üstəlik də enerji keçidi məsələsində irəlidəyik, "yaşıl gündəli"yimiz artıq hamıya bəllidir. Vacib məsələlərdən biri də odur ki, gerçəkləşdirdiyimiz neft, qaz və ixrac layihələrinin hamısında ətraf mühitə təsirin minimum olması üçün böyük səylər göstərilir.

Hər bir layihənin həyata keçirilməsinə başlamazdan əvvəl onun ƏMSSTQ sənədləri hazırlanır və hökumət tərəfindən imzalanır. Bu, karbohidrogenlərin hasilatı və ixracı ilə məşğul olan bütün ölkələrdə, o cümlədən Azərbaycanda da belədir.

ƏMSSTQ - Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi deməkdir. "Əsrin müqaviləsi" çərçivəsində gerçəkləşən layihələrin də hər birinin ƏMSSTQ sənədləri olub, onlar əvvəlcə ictimaiyyətin müzakirəsinə verilib və sonra hökumət tərəfindən təsdiqlənib.

"Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin həyata keçirilməsinin hər bir mərhələsində ƏMSSTQ qarşıda ümdə məsələ kimi dayanıb. Bu baxımdan ən maraqlı məqamlardan biri Səngəçal terminalının genişləndirilməsi zamanı müşahidə olundu. Tikinti işləri prosesində bir sıra yerli və qlobaləhəmiyyətli canlı növləri təsirə məruz qala bilərdi. "Qırmızı kitab"a düşmüş Aralıq dənizi tısbağaları xüsusilə həssas idi. Ona görə də tısbağalar qış yuxusunda ikən ayrı-ayrı qutulara yığıldı. Terminalın ərazisində qeyri-adi bir ferma - tısbağa ferması yaradıldı. Beləliklə, bu canlılar təhlükədən qorundu, böyüdü, artdı... Fürsətdən istifadə edib tısbağalara alimlər, mütəxəssislər baş çəkdilər, onları müşahidə edərək yeni bilgilər qazandılar. Məktəblilər ekskursiyaya gələrək maraq dünyalarını zənginləşdirdilər... "Aralıq dənizi tısbağaların müdafiəsi və artırılması proqramı" uğurla başa çatdırıldı.

Yeri gəlmişkən qeyd edək ki, ümumiyyətlə, AÇG-nin yüksək texniki təhlükəsizlik nailiyyətləri var. Bu, ətraf mühitə məsuliyyətlə yanaşan bir layihə kimi öz təsdiqini tapıb. Təkcə bir neçə faktı xatırlatmaq kifayətdir. Məsələn, layihənin əvvəlindən 2021-ci ilin sonuna qədər AÇG çərçivəsində 140 Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi, dəniz, quru və sahilyanı ərazilərdə 266 monitorinq tədqiqatları aparılıb.

Ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətinin SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi) qaydaları da olduqca ciddidir. "Hər kəs evindən işə sağ-salamat gəldiyi kimi, beləcə də geri dönməlidir!" Bu, sözügedən layihələrdə işləyənlər üçün bir şüara çevrilib. Onların hər biri özünü intizamı, məsuliyyəti, keyfiyyətli işi ilə doğruldur.

SƏTƏMM-in şərtlərinə əraziyə gələn qonaqlar, o cümlədən BP-nin təşkilatçılığı ilə vaxtaşırı səfərdə olan jurnalistlər də əməl etməlirdirlər. Belə ki, sahəyə daxil olarkən onlar da kombinezon və çəkmə geyinir, gözlərinə qoruyucu eynək taxır, başlarına dəbilqə qoymalı olurlar. Ərazini tərk edərkən həmin əşyalar təhvil verilir. Lakin bu qeydlərin müəllifinə müstəsna hal kimi, yadigar olaraq bir neftçi kombinezonu bağışlayıblar... Bunlar kövrək və qürur doğuran xatirələrdir.

Məlum olduğu kimi, BP şirkəti öz tərəfdaşları ilə birlikdə ölkəmizdə çoxsaylı sosial proqramlar da həyata keçirir və bunları əsas əməliyyatların ayrılmaz bir hissəsi sayır. Bu sırada ekologiya ilə bağlı sosial layihələr də özünə yer alır. Məsələn,"Yaşıl ürək" layihəsi.

"Yaşıl ürək" torpaq eroziyasının və səhralaşmanın qarşısını almaqla karbon emissiyalarını azaltmağa yönəlmiş iri ekoloji layihədir. Layihə çərçivəsində görüləcək işlər 251 min yeni ağacın əkilməsini və birinci mərhələdə Samuxda daha əvvəl əkilmiş 110 min ağaca qulluq edilməsini nəzərdə tutur. Bundan əlavə, Qobustan rayonunda seçilmiş bir hektar ərazidə suya qənaət edən avadanlıqdan və qabaqcıl əkin üsulundan istifadə olunmaqla innovativ yaşıllaşdırma sistemi yaradılacaq. Layihə çərçivəsində indiyə kimi Samux, Şəmkir və Qobustan rayonlarında on minlərlə ağac əkilib.

Əslində "Yaşıl ürək" digər bir sosial layihədən - "Şirin qızıl"dan ayrılmazdır. Belə ki, BP həmçinin beş ilə yaxındır iki mərhələdə "Şirin qızıl" adlı layihə həyata keçirir. Nəticədə, 6 rayonda 530 ailə öz şəxsi arıçılıq biznesinə başlayıb. Bu layihənin bir növ davamı olaraq arıçılıq təsərrüfatlarına yaxın ərazidə Azərbaycanın ilk "nektar meşəsi" salınıb.

Keçən ilin payızında BP-nin təşkilatçılığı ilə Samux rayonunda səfərdə olan jurnalistlər bu meşələri əyani görmək üçün imkan qazandılar. Həmin səfər zamanı "Yaşıl ürək" layihəsinin meneceri Vüqar Bəşirov bu barədə məlumat verərək dedi:

- 2019-cu ilin ikinci yarısından arı ailələrinin saxlandığı ərazilərə yaxın yerlərdə ağaclar əkməyə başladıq. Yem bazası olan bu meşə massivindəki ağacların hamısı nektarverəndir. Akasiya, ağcaqayın, badam, xaricdə "bal ağacı" kimi tanınan evodiya ağacları əkdik. Deyim ki, evodiyanın çiçəkləmə prosesi avqust-sentyabr aylarına qədər davam edir. Bu da arıların qidalanması üçün çox əlverişlidir. Təkcə Samuxda 110 min ağac əkilib. Rayonun torpaq və iqlim şəraiti nəzərə alınaraq ağacların suvarılması üçün infrastruktur da yaradılır. Bu məqsədlə istifadəsiz qalmış üç artezian quyusu bərpa edilib.

Ümumilikdə isə "Yaşıl ürək" və "Şirin qızıl" layihələri çərçivəsində indiyədək Qobustanda min ağac əkilib. Samuxda və Şəmkirdə ağacların əkildiyi sahələr isə ümumilikdə 315 hektar təşkil edir.

Layihə birinci mərhələdə Yevlax, Goranboy, Samux və Şəmkir rayonlarında 100-dən çox ailəni əhatə edib. Növbəti mərhələdə bu rayonların sırasına Tovuz və Ağstafa da qoşulub. Bu mərhələdə adıçəkilən 6 rayonda daha onlarla ailə arıçılıqla məşğul olmağa başlayıb.

Onu da qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və BP-nin rəhbər işçiləri dəfələrlə "Yaşıl ürək" meşə sahələrində olub, əraziyə baxış keçirib, eləcə də burada yeni ağaclar əkiblər. Məsələn, keçən ilin may ayında ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz "Yaşıl ürək" meşəsinə səfər ediblər. Onlar birlikdə Samux rayonunun Çobanabdallı kəndində yerləşən meşəyə baxış keçirib, layihənin gedişi ilə ətraflı tanış olub və sahədə 100 pavloniya ağacı əkiblər.

BP-nin Xəzər regionunda xarici işlər və kommunikasiyalar üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli layihə haqqında belə deyib: "Biz fəaliyyət göstərdiyimiz bölgələrdəki icmalarda insanlara dayanıqlı mənfəət və faydalar gətirməyimizlə fəxr edirik. "Şirin qızıl" layihəsində qarşıya qoyduğumuz məqsədlər tam həyata keçirilib - kənd icmalarında insanlar üçün gəlir imkanları açılıb və yeni bacarıqlar yaradılıb. Həmçinin çox məmnunuq ki, bu layihə ölkədə ağacəkmə və yeni meşəsalma hərəkatına əhəmiyyətli töhfə verib. İnanırıq ki, layihə çərçivəsində yaradılmış "bal meşəsi" həm arıçılıq üçün bir nektar mənbəyi olaraq, həm də yaşıl təbiət və təmiz ekologiyaya dəyərli dəstək kimi uzun illər boyu yerli icmalara xidmət edəcək".

Neft və ekologiya... Sadaladıqlarımız bu mövzuya aid yalnız bəzi cizgilərdir. "Yaşıl həyat naminə həmrəylik ili"ndə və COP29 ərəfəsində bu məsələ daha böyük önəm daşıyır, ətraf mühitin mühafizəsinin gündəmdən düşmədiyini tam ciddiliyi ilə bir daha xatırladır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# DİN: Ətraf mühiti və təbiəti təmiz saxla. Bu məsuliyyətdir!





**Paytaxt və bölgələrdə ərazilərin təmizlik, sanitar-gigiyena qaydalarına riayət olunması polis əməkdaşları tərəfindən daim diqqətdə saxlanılır.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xüsusilə də yerli və xarici ziyarətçilərin ən çox səfər etdikləri işğaldan azad olunan ərazilərdə məişət tullantıları və tütün məmulatlarının tutumlara (urnalara) atılması təşviq olunur, qaydalara əməl etməyən şəxslərə qarşı inzibati tənbeh tədbirləri görülür. Nazirlik bir daha vətəndaşların nəzərinə çatdırır ki, tullantıları urnalardan kənara atmaq qanunla qadağandır və inzibati məsuliyyət yaradır.

# Ticarət mərkəzinin kollektivinə yanğınlar zamanı zəruri davranış qaydaları öyrədilib

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti və Dövlət Yanğından Mühafizə xidmətlərinin birgə təşkilatçılığı ilə Bakıdakı "Gənclik Mall" ticarət mərkəzində "Fövqəladə hallar zamanı davranış qaydaları və təxliyə" mövzusunda təlim keçirilib.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, FHN-in müvafiq canlı qüvvə və texnikasının cəlb edildiyi təlimin keçirilməsində məqsəd "Gənclik Mall" ticarət mərkəzinin kollektivinə fövqəladə hallar, o cümlədən yanğın zamanı davranış qaydalarının aşılanması, habelə belə obyektlərdə mümkün hadisələr zamanı yanğından mühafizə bölmələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi olub.

Təlimdə FHN-in əməkdaşları ticarət mərkəzinin kollektivinə fövqəladə hallar, o cümlədən yanğınlar zamanı zəruri davranış qaydaları, təxliyə tədbirləri barədə ətraflı məlumat veriblər. Həmçinin tədbir iştirakçılarına ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, suallar cavablandırılıb.

Sonra şərti yanğınla əlaqədar "Həyəcan" siqnalı verilib. Dövlət Yanğından Mühafizə Xidməti Nərimanov Rayon Yanğından Mühafizə Hissəsinin qüvvələri operativ qaydada hadisə yerinə çataraq "yanğınla mübarizə" tədbirlərinə başlayıblar. Şərti yanğın baş vermiş ticarət mərkəzində işçilər "təhlükəsiz yerə təxliyə olunublar". Şərti xəsarət almış şəxslərə "ilkin yardım göstərilib", "yanğın qısa müddətdə söndürülüb".

Uğurla keçən təlimdən sonra əldə edilmiş nəticələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

# Yaşayış binaları və obyektlərdə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məsələsi müzakirə olunub

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti növbəti müşavirə keçirib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirə Dövlət Yanğın Nəzarəti Xidmətinin Sumqayıt regional dövlət yanğın nəzarəti idarəsinin xidməti sahəsinə daxil olan ərazidə yerləşən mühüm əhəmiyyətli, təhlükə potensiallı obyektlərdə, həmçinin yaşayış sektorunda yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi, eyni zamanda qarşıda duran vəzifələr və onların həlli yollarının müzakirəsi məqsədilə təşkil olunub.




Tədbirdə FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndələri, Mənzil İstismar Sahəsinin rəhbər şəxsləri, bələdiyyə sədrləri iştirak ediblər.

Müşavirədə məişət və istehsalat tullantılarının qanunsuz yığıldığı ərazilərin təmizlənməsi, nasaz yanğın su hovuzları və hidrantların bərpası, mühüm əhəmiyyət kəsb edən, eyni zamanda, təhlükə potensiallı müəssisələrin, yaşayış binalarının, eləcə də insanların kütləvi toplaşdığı obyektlərin yanğın zamanı təhlükəsizliyi məsələləri müzakirə olunub. Nöqsan və pozuntular diqqətə çatdırılıb, problemlərin aradan qaldırılması ilə bağlı aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilib.

Müşavirədə COP29 ərəfəsində yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə qarşılıqlı fəaliyyətin gücləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsinə dair planlar müzakirə edilib.

# Atmosfer havasının mühafizəsi ilə bağlı sahibkarlarla görüş keçirilib

**"Bakı KOB evi"ndə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə atmosfer havasının mühafizəsi sahəsində sahibkarların maarifləndirilməsi məqsədilə görüş keçirilib.**




KOBİA-dan AZƏRTAC-a bildirilib ki, ETSN-nin müvafiq qurumlarının iştirakı ilə təşkil olunan tədbirdə sənaye və ictimai-iaşə (restoran, şadlıq evi) sahəsində fəaliyyət göstərən 50-dən çox sahibkar iştirak edib.

Tədbirdə atmosfer havasının mühafizəsi, bu sahədə qanunvericiliyin tələbləri sahibkarların diqqətinə çatdırılıb.

KOBİA-nın İdarə Heyəti sədrinin müavini Samir Hümbətov, Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə çıxış edərək fikirlərini bölüşüb, eyni zamanda nazirliyin mütəxəssisləri təqdimatlarla çıxış ediblər. Qeyd olunub ki, "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, hüquqi və fiziki şəxslər atmosferə atılan tullantıların qarşısını almalı, onların zərərsizləşdirilməsi təmin olunmalı, az tullantılı və tullantısız texnologiyalar tətbiq edilməli, bu sahədə normativlərə əməl olunmalıdır. Həmçinin sahibkarların diqqətinə çatdırılıb ki, sənaye və ictimai iaşə obyektlərində qaz-toztutucu qurğuların quraşdırılması, bu qurğulara mütəmadi texniki xidmətin göstərilməsi və filtrlərin təmizlənməsi, atmosferə atılan tullantılarla bağlı uçot və hesabatın aparılması, məlumatların regional ekologiya və təbii sərvətlər idarəsinə təqdim edilməsi vacibdir.

Görüş çərçivəsində biznes subyektlərinin təklifləri və çətinlikləri öyrənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb və sahibkarların sualları cavablandırılıb.

# Köhnə problemə yeni baxış: okkult B hepatiti - tibbin yeni istiqaməti Azərbaycanda

**Tibb elmi böyük inkişaf yolu keçib. Bir zamanlar bəşər övladlarının sağalmaz hesab etdikləri, qarşısında çarəsiz, aciz qaldıqları neçə-neçə ağır xəstəliklərə indi dərmanlarla, cərrahiyyə əməliyyatları ilə əlac etmək müşkül deyil. Ancaq elm bir dəryadır, deyirlər. Bütün sahələrdə olduğu kimi, tibb sahəsində də son hədd yoxdur. Bir də, çox təəssüf ki, hələ də dərmanı tapılmamış dərdlər, çarəsi bilinməyən xəstəliklər var. Tibb elminin bugünkü yüksək inkişafına baxmayaraq, B hepatiti də dünyada ciddi problemlərdən biri kimi qalır. Ekspert Sevda Ağayeva bildirir ki, B hepatiti insanın immun cavabı ilə virusun arasında qarşılıqlı əlaqələrdən asılıdır.**



Qeyd edək ki, Sevda Ağayeva səkkiz ildir ki, müxtəlif tibbi problemlər, o cümlədən Azərbaycan əhalisi arasında gizli hepatit B infeksiyasına yoluxma ilə bağlı tədqiqatlar aparır. Mütəxəssisin gizli hepatit B ilə bağlı elmi işinin nəticələri həm Azərbaycanda, həm də dünyada tanınıb. Diqqətə çatdıraq ki, ölkəmizdə okkult hepatit B ilə bağlı ilk dəfə Sevda Ağayeva tədqiqatlar aparıb və bu mövzuda dissertasiya müdafiə edərək tibb üzrə fəlsəfə doktoru adını alıb. Onun fərqli xəstə qruplar və donorlar arasında gizli hepatit B-nin rastgəlmə tezliyi və qaraciyər xəstəliklərinin gedişatına təsiri barədə çox sayda məqalələri dərc olunub. Sevda Ağayeva Qafqaz ölkələri arasında ilk və yeganə gizli hepatit B-yə həsr olunmuş elmi işinin əhəmiyyətli nəticələrini bizimlə bölüşür.

Mütəxəssis bu aktual mövzunun yeni istiqamətini elmi şəkildə inkişaf etdirən və hepatit B virusunun nisbətən yeni forması olan okkult, yəni gizli infeksiyası barədə danışır. Bildirir ki, hepatit B əksər hallarda, yəni 95 faiz yoluxmadan sonra tamamilə yox olur, digər hallarda isə qaraciyərdə şiddətli iltihablı reaksiyanı aktivləşdirir, kəskin xəstəliyin simptomları başlayır: "Bu da, ümumiyyətlə, 6 aydan az müddətdə aradan qalxır. İstisna olaraq yalnız 1 faiz hallarda kəskin qaraciyər çatışmazlığına yol aça bilər. Xəstələrin 5-10 faizinin immun sistemi virusun çoxalmasına nəzarət edə bilmir və infeksiya xroniki formaya keçir".

Hepatitlərə əsasən, qan donorlardan, qeyri-steril alətlərlə icra olunan tibbi prosedurlardan və anadan dölə şaquli yolla yoluxur. Qan və donorlar məsələsinə gəlincə, Sevda Ağayeva vurğulayır ki, kimin qan verə biləcəyi və verə bilməyəcəyi ilə bağlı ciddi qaydalar var. Məsələn, insanlarda immun çatışmazlığı virusu pozitivdirsə, Hepatit B və ya C varsa və ya nə vaxtsa sifilisdən müalicə olunublarsa, qan verə bilmirlər: "Son onilliklər ərzində könüllü donorların cəlb edilməsi, risk-davranış qiymətləndirilməsi əsasında donorların seçilməsi, getdikcə daha həssas olan hepatit B antigeninin (HBsAg) analizlərinin inkişafı, HBV-nin ötürülməsi riski davamlı şəkildə azalmışdır".

Ekspert deyir ki, qan təhlükəsizliyi tədbirlərinə baxmayaraq, arzu edilən sıfır risk məqsədinə hələ nail olmaq mümkün deyil: "HBV transfuziyası-ötürülməsinin qalıq riski serokonversiya pəncərəsi dövrü və aşkar edilə bilən HBsAg-nin olmaması və HBV DNT-nin son dərəcə aşağı səviyyələri ilə xarakterizə edilən gizli HBV infeksiyası ilə əlaqədar görünür. Lakin seroloji və yaxud NAT ilə sınaqdan keçirilmiş yoluxmuş donorların yalan-mənfi olması hələ də davam edir və əldə edilən qan komponentlərinin nadir hallarda olsa da virusu ötürdüyü təsdiqlənib".

Sevda Ağayeva nəzərə çatdırır ki, Hepatit B okkult formasında, sadəcə, yüksək həssaslığa malik xüsusi testlərlə aşkar olunduğundan gözdən yayınır və bu, potensial infeksiyanın yayılma riskini artırır: "Okkult hepatit B-si olan xəstələrin çoxu diaqnoz qoyulmamış qala bilər; düzgün diaqnoz üçün ultrahəssas HBsAg kimi yeni markerlərin və cccDNA kimi markerlərin daxil edilməsi ilə daha əhatəli marker tədqiqatının aparılması lazımdır".

Hazırda dünyada uşaqları, eləcə də yoluxma riski olan yetkin insanları hədəfləyən proqramlar üçün hepatit B peyvəndi mövcuddur. Mütəxəssis deyir ki, peyvənd sistemi nə qədər effektiv olsa da, okkult B hepatitinə görə infeksiya riski heç vaxt sıfır olmayacaq. Bəzi ölkələrdə 2019-cu ildən bəri HBV peyvəndinin üç dozasının əhatə dairəsinin azaldığını, bunun da COVID-19 pandemiyası və nəticədə ictimai sağlamlıq tədbirləri ilə bağlı ola biləcəyini bildirdi.

Sevda Ağayeva elmi işində indiyədək Azərbaycanda və dünyada dərc olunmuş məqalələrdə əksini tapan okkult infeksiyanın ən çox xəstə qruplarını əhatə edib. Onun elmi işinin yalnız Azərbaycanda deyil, bütün dünyada böyük bir əhəmiyyəti var. İndiyədək aktual, lakin səssiz qalmış problemə toxunulur, xəstələrə yanaşmanı və müalicə taktikasını dəyişmə zərurəti vurğulanır. Okkult hepatitlə bağlı daha ətraflı və dərin araşdırmalar həkim Sevda Ağayevanın əsas hədəfidir.

Virus hepatitlərin epidemiyaları mürəkkəb və dinamikdir, infeksiyaların davamlı ötürülməsi və bəzi əhali qruplarında olduqca yüksək yayılma riski var. Mövcud profilaktika proqramları ilə bağlı əhəmiyyətli məlumat boşluqları qalır və bu, boşluqların aradan qaldırılması hədəflərinə doğru irəliləyişin monitorinqi üçün problemlər yaradır. İnsanların okkult hepatit kimi gizli problemlərə nəzarəti, maarifləndirilməsi və düzgün müalicə taktikası gələcəkdə həm sağlamlıq, həm də maddi baxımdan faydalı ola bilər.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Vərəm xəstəsi olan hamilə qadınların 6 faizində vaxtından əvvəl doğuş halları müşahidə edilir

**Vərəm doğuşun heç bir mərhələsinə təsir etmir. AZƏRTAC xəbər verir ki, bu fikri Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova söyləyib.**



Onun sözlərinə görə, doğuşdan sonrakı dövr əksər hallarda əlverişli kursa malikdir: "Ağciyər vərəmindən əziyyət çəkən analardan praktiki olaraq sağlam uşaqlar doğulur. Vərəmin hamiləlik, doğuş və doğuşdan sonrakı dövrə təsirinin spesifikliyi müəyyən edilməyib".

Direktor bildirib ki, vərəm xəstəsi olan hamilə qadınların 6 faizində vaxtından əvvəl doğuş halları müşahidə olunur və gecikmiş doğuş son dərəcə nadirdir.

İ.Axundova sonda qeyd edib ki, doğuş aktının fiziologiyası yüksək sabitliklə xarakterizə olunur.

# Siqareti tərgitdikdən beş il sonra ağciyər xərçəngi riski 2 dəfə azalır

**"Tütündən istifadə ağciyər daxil olmaqla, bütün orqanlara ciddi zərər verir. Tütün istifadəsi dünyada hər 6 saniyədə bir insanın ölümünə səbəb olur. Bu zərərli vərdiş nəticəsində onkoloji xəstəliklər, tənəffüs, mədə-bağırsaq, sidik-cinsiyyət, qantörədici sistemlərinin xəstəlikləri yüksək ehtimalla baş verə bilər".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova açıqlayıb.

İ.Axundova bildirib ki, tütünçəkmə ağciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbi hesab edilir: "Aktiv tütün çəkənlərdə ağız boşluğunun, dodağın, mədənin və onikibarmaq bağırsağın, sidik-cinsiyyət orqanlarının, qan törədici sisteminin xərçəng xəstəliyinin yaranması riski artır. Eyni zamanda ürək-damar xəstəliklərinin (ateroskleroz, beyin və ürək-damar xəstəlikləri, qarın aortasının anevrizmasının inkişafı) baş verməsi ehtimalı yüksəlir. Elmi cəhətdən sübut olunub ki, tütün bütün halların 90 faizində ağciyər xərçəngindən, 75 faizində bronxit və emfizemadan, təxminən 25 faizində isə ürək xəstəliyindən ölümün səbəbidir. Tənəffüs yolları xəstəliklərindən isə ağciyərlərin xroniki obstruktiv xəstəliyi, bronxit, pnevmoniya, uşaqlarda və böyüklərdə ağciyər xəstəliklərinin yaranması ehtimalı artır", - deyə həkim qeyd edib.

Direktor bildirib ki, siqaret çəkən qadınlarda fertillik zəifləyir: "Tütün tüstüsü ilə orqanizmə daxil olan zərərli maddələr həm hamilə qadına, həm də onun bətnindəki dölə mənfi təsir göstərir. Siqaret tüstüsünün toksiki maddələri hamiləlik zamanı baş verən müxtəlif fəsadların yaranması ehtimalına və dölün oksigen çatışmazlığına gətirib çıxararaq bütün orqanlarda normal inkişafın pozulması riskini artırır. Siqaret çəkən kişilər çəkməyənlərdən təxminən 12 il, qadınlar isə təxminən 11 il az yaşayırlar".

İ.Axundova vurğulayıb ki, tütünçəkmə nəticəsində əmələ gələn bir çox xəstəliklərin yaranma riski bu zərərli vərdişdən imtina etdikdən sonra azalır: "Siqareti tərgitdikdən sonra orqanizmdə normallaşma bir sıra etaplarla başlayır. Belə ki, ilk 20 dəqiqə ərzində qan təzyiqi normallaşır, 8 saat sonra qanda oksigen səviyyəsi tənzimlənir, miokard infarktı riski azalır, 24 saat sonra karbonmonoksit orqanizmdən tamamən təmizlənir. Tütündən imtina etdikdən 48 saat sonra qanda nikotinin səviyyəsi azalır, dad və qoxu hissi yüksəlir, iki həftə-üç ay aralığında qan dövranı tam bərpa olunur. Həmçinin ağciyərlərin həyat tutumu 30 faiz artır, fiziki aktivlik yaxşılaşır, eləcə də 1 ildən sonra koronar arteriyalarla bağlı xəstəlik riski 50 faiz azalır, 5 il sonra ağciyər xərçəngi riski 2 dəfə azalır".

# 19 yaşında 28 gürcünü həyatı bahasına xilas etdi

## Rahib Məmmədovun Ağdamda başlayıb Gürcüstanda qəhrəmanlıqla bitən ömrü əbədi örnəkdir

◆Unudulmazlar



**Qoynunda yaşadığımız dünya əvvəlcədən düşünülüb hesablanmış hansısa bir düsturla, cızılmış xətlə nizamlanmır. Buna görə də ömrümüzün müxtəlif günlərində, fərqli anlarında qəflətən hansısa ağır sınaqlarla üzləşməli oluruq. Belə anlarımızda çətinlikləri iradəmizin qətiyyəti ilə dəf etməyə çalışır, məqsədə çatmaq üçün bütün gücü ortalığa qoyuruq. Özümüzə güvənə-güvənə mübarizə aparır və sonda qalib gəlirik.**

**Elə insanlar var ki, sıradan ömür yaşayırlar. Bəzən səssiz-səmirsiz yaşadıqları bu dünyadan köçürlər. Bir müddətdən sonra isə ən yaxın qohumları tərəfindən belə tamam unudulurlar. Sonralar onları heç xatırlayıb yada salan da olmur. Amma elə insanlar da var ki, yaşadıqları qısa ömürdə böyük qəhrəmanlıq və igidliklər göstərirlər, necə deyərlər, tarix yazırlar. Özlərindən sonra şərəfli ad, qürurduyulası əməllər, heç vaxt yaddaşlardan silinməyəcək dəyərli örnək qoyub həyatdan gedirlər.**

### Vətənə Rahib kimi oğullar gərək

1987-ci ilin soyuq fevral günlərində Gürcüstan Respublikasının Poti şəhərinin Çaladidi kəndindən axan Rioni çayında ölümlə üz-üzə qalmış insanları xilas edərkən böyük hünər və rəşadət göstərmiş 19 yaşlı Rahib Məmmədov qısa həyatında böyük və şərəfli ömür yaşayıb. Qəhrəmanlığı ilə ölməzlik yolunun yolçusuna çevrilib...

1996-cı il martın ortalarında - Novruz bayramı ərəfəsində Ağdam bölgəsinə ezamiyyətə getmişdik. Qatardan düşən kimi ön xəttə tələsdik. Səngərlərə baş çəkib zabit və əsgərlərlə görüşdük. Hərbi hissənin məktəbdə yerləşən qərargahına yalnız şər qarışanda qayıtdıq. Həmin günlərdə hərbi hissələr cəbhə bölgəsindəki məktəblərdə yerləşirdi. Gecəni burada qalmalı olduq. Səhər lap ertədən təhsil ocağının həyətinə çıxanda meydanın tən ortasında büst gördük. Yaxınlaşıb diqqətlə baxdıq, adını oxuyan kimi bir vaxtlar ali məktəbə qəbul imtahanı verəndə onun haqqında inşa yazdığımı xatırladım. Qarşısında dayandığımız 1987-ci ildə Gürcüstanın Çaladidi kəndində təbii fəlakət zamanı Rioni çayında insanların həyatını xilas edərkən ölümsüzlük zirvəsinə yüksəlmiş Rahib Məmmədovun büstü idi.

Rahib Məmmədov 25 avqust 1967-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində dünyaya göz açıb. Uşaqlığı, gəncliyi bu gözəl kənddə keçib. Təəssüf ki, onun ömür yolu qısa olub. Cəmi 19 il! Amma Rahib bu qısa ömrü ləyaqətlə yaşayıb, qəhrəmanlıq göstərib, həyatını şərəflə başa vurub. Qəhrəmanlığı, igidliyi ilə özündən sonra şərəfli ad qoyub, yaddaşlarda ulduz kimi parlayıb, şimşək kimi çaxıb. Cəsarəti və igidliyi ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazıb.

18 yaşına çatanda yaşıdları kimi Rahibə də hərbi komissarlıqdan çağırış vərəqi gəlib. Valideynləri, yaxınları onu təntənə ilə ordu sıralarına yola salıblar. Atası Gülmalı kişi də, anası Roza xala da Rahibin keçmiş ittifaqın hansı şəhərinə düşəcəyini, məktubunun haradan gələcəyini intizarla gözləyiblər. Günlərin birində onların narahatçılığına son qoyulub. Qapılarını döyən paçtolyon Rahibdən məktub gətirib. Xoşbəxtlikdən oğulları çox uzaqlara düşməyib. Gürcustandakı hərbi hissədə xidmət edirmiş. Gələcəyin qəhrəmanı yazırdı ki, burada onlara zirehli texnikaları idarə etməyi öyrədirlər.

1987-ci il fevralın 1-i idi. Rahibin xidməti adi günlərdəki kimi davam edirdi. Saatın əqrəbləri gecə 5-i göstərirdi. Növbətçi əsgər və zabitlərdən başqa hərbi hissənin şəxsi heyəti şirin yuxu içərisindəydi. "Qalx!" komandasına bir saat qalmışdı. Amma saat 5-dən biriki dəqiqə keçər-keçməz şəxsi heyət "həyəcan" çağırışı ilə ayağa qaldırıldı. Məlum oldu ki, yağan güclü qar və yağışdan sonra məcrasını aşan Rioni çayı qəflətən Çaladidi kəndini ağuşuna alıb. Sakinlərin həyatı üçün çox ciddi təhlükə yaranıb, onları xilas etmək lazımdır.

Çox keçmədi ki, xilaskarlıq missiyasını yerinə yetirməyə hazır olan sürücü-mexaniklər parka toplaşdılar. Tabor komandiri Semyonov vəziyyət barədə qısa məlumat verdikdən sonra onlara hərəkət marşrutunu dəqiq göstərdi: Poti şəhəri, Çaladidi kəndi, Rioni çayı.

Təbii fəlakət zonasına təyin olunmuş vaxtdan da bir az tez çatan əsgərlər gördüklərindən dəhşətə gəldilər. Güclü yağıntıdan sonra məcrası darlıq edən Rioni çayı kəndin məhəllələrindən axırdı. Getdikcə güclənən sel artıq bir neçə evi uçurmuşdu. Fəlakətdən yaxa qurtarmaq üçün kənd sakinlərinin bəziləri evlərin damına çıxmış, bəziləri yaxınlıqdakı ağaclara dırmanmışdılar. Əli hündür yerə çatmayanları isə sel qoynuna alıb aparırdı. İnsanların köməyinə yetişən zirehli maşınlar onları xilas etmək üçün bir-birinin ardınca iti axan sel sularını yarıb irəli gedirdi. Bacarıqlı sürücü-mexanik Rahib Məmmədov zirehli texnikanı məharətlə idarə edərək özünü evlərin damına çıxanlara çatdırır, adamları təhlükəli zonadan çıxarırdı. Sel suları bəzi yerlərdə iki-üç metrə qalxmışdı. Məhəlləri dolaşan Rahib sakinləri ölümün pəncəsindən almağa çalışırdı. Bu cəsur azərbaycanlı əsgər qısa vaxt ərzində 28 nəfəri ölümdən xilas etməyi bacarmışdı...

Güman olunurdu ki, artıq kənddə adamların hamısı xilas edilib. Sürücü-mexaniklər idarə etdikləri zirehli texnikaları təpənin ətəyində, təhlükəsiz bir yerdə saxlayıb növbəti əmri gözləyirdilər. Bu vaxt kənd sakinlərindən yaşlı bir kişi onlara yaxınlaşıb həyəcanla dedi:

- Uşaqlar, çox sağ olun, camaata yaxşı kömək etdiniz. Amma deyəsən, kənddə qalanlar var. Yuxarıdan səslər gəlir, darda qalan sakinlər qışqırıb kömək istəyirlər.

Əsgər yoldaşları tərpənincə Rahib bir göz qırpımında zirehli texnikanın sükanı arxasına keçib mühərriki işə saldı. Maşının güclü uğultusu, selin şırıltısına qarışıb eşidilməz oldu. Cəsur əsgər darda qalanları xilas etmək üçün irəli gedirdi. Amma kənddə kimsə gözə dəymirdi, xilasa çağıran səslər eşidilmirdi. Ötən müddət ərzində sel bir az da güclənmişdi. Onun idarə etdiyi zirehli texnika qəflətən burulğana düşdü. Selin güclü dalğası bir an içində maşını aşırıb körpünün dirəyinə çırpdı. Nə qədər çətin olsa da, Rahib maşının sükanını əlindən buraxmadı. O həm özünü, həm də idarə etdiyi zirehli texnikanı xilas etməyə çalışdı. Təəssüf ki, cəhdləri boşa çıxdı. Maşın qəflətən arxası üstə çevrildi, bayaqdan guruldayan mühərrik susdu. Sel zirehli texnikanı qabağına qatıb xeyli irəli apardı. Maşının içərisindən Rahibin səsi eşidilmirdi. 28 nəfər kənd sakinini xilas edən Rahib qəhrəmancasına həlak olmuşdu…

### Hamı Rahibdən danışırdı

O günlərdə ittifaqın mərkəzi qəzetlərində Rahib Məmmədovun göstərdiyi qəhrəmanlıq geniş işıqlandırıldı. Həm mərkəzi, həm də yerli televiziyalarda silsilə verilişlər nümayiş etdirildi. Rahib Gülmalı oğlu



Məmmədov ölümündən sonra keçmiş ittifaqın ən yüksək mükafatlarından olan "Qırmızı Ulduz" ordeninə layiq görüldü.

...Bu hadisədən sonra Ağdam rayonunun Mahrızlı kəndində Gülmalı kişinin həyətində yas çadırı qurulmuşdu. Qohumlar, yaxınlar Rahibin ölüm xəbərini eşidib kədər içində onlara gəlirdilər. Gülmalı ata, Roza ana qəm dəryasına batmışdı. O ağır günlərində valideynlər təskinliyi yalnız onda tapırdılar ki, oğulları xidməti vəzifəsini yerinə yetirərkən, ölüm ayağında olan insanları xilas edərkən həlak olmuş, böyük qəhrəmanlıq göstərmişdi.

Rahibin dəfn mərasiminə minlərlə insan gəlmişdi. İynə atsaydın yerə düşməzdi. Gürcüstandan, Caladidi kəndindən də gələnlər çox idi. Yaxından, uzaqdan mərasimə qatılanlar acı göz yaşları içində Rahibi Mahrızlı kəndinin qəbiristanlığında torpağa tapşırdılar.

Həmin hadisədən nə az, nə çox düz 37 il keçir. Əgər Rahib Məmmədov Çaladidi kəndində insanların həyatlarını xilas edərkən həlak olmasaydı, əminliklə demək olar ki, Qarabağ torpaqları uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstərəcəkdi. Çünki həyatda cəsurluq göstərmək üçün doğulmuş insanlar həmişə ömürlərini müqəddəs amallara həsr edirlər. Mübarizə aparmaq istəyi daim onları döyüş meydanlarına çəkib aparır.

### Məktəb-muzey

2012-ci ilin yayı idi. Ağdam rayonunda ezamiyyətdəydik. Həmin günlərdə yolumuzu Rahib Məmmədovun adını daşıyan məktəbdən saldıq, pedaqoji kollektivlə, şagirdlərlə görüşdük. Artıq hərbi hissənin şəxsi heyəti məktəbi tərk etdiyinə görə təhsil ocağı yenidən doğma şagirdlərini, müəllimlərini qoynuna almışdı. Rahib də bir vaxtlar burada oxumuş, müəllimlərdən dərs almışdı. Dəhlizlər, sinif otaqları uşaqların şən səs-küyü ilə dolmuşdu. Müəllimlərlə söhbət edərkən öyrəndik ki, məktəbdə Rahib Məmmədovun şərəfinə muzey fəaliyyət göstərir. Eksponatlara muzeyin direktoru, tarix müəllimi İntiqam Əsədovla birlikdə baxdıq. Gördüyümüz hər kiçik detal bizdə böyük maraq oyadırdı. Muzeydə qəhrəmanın ömrünün müxtəlif anlarını əks etdirən çoxlu fotolar da var idi. İllərcə əvvəl çəkilmiş bu şəkillərə baxdıqca sanki Rahib Məmmədovun ömür yolu kino lenti kimi mərhələ-mərhələ gözlərimiz önündən gəlib keçirdi.

Hadisənin baş verdiyi həmin günlərdə keçmiş ittifaqın hər tərəfindən qəhrəmanın valideynlərinin ünvanına yüzlərlə minnətdarlıq məktubları göndərilirdi. Soyuq fevral günlərində gürcülərin, rusların, özbəklərin, türkmənlərin, qazaxların və başqa millətlərin təskinlik və iftixar dolu məktubları Ağdam rayonunun Mahrızlı kəndinə qanadlanıb gəlirdi. Bu məktublar minnətdarlıqla başlayır, xoş arzu və niyyətlə davam edir, təskinliklə tamamlanırdı. Gülmalı ata, Roza ana o ağır günlərdə bu xoş sözlərdən, ümidverici məktublardan təskinlik tapır, onları övladlarından ən qiymətli xatirə kimi saxlayırdılar.

O günlərdə Məmmədovlar ailəsinə göndərilən məktub və teleqramların ünvanları müxtəlif idi: Tomsk, Ulyanovsk, Fərqanə, Kişinyov, Sverdlovsk, Karaqanda, Riqa, Düşənbə... - bir sözlə, keçmiş ittifaqın hər yerindən, xüsusilə də faciənin baş verdiyi qardaş Gürcüstandan. Müəlliflər də müxtəlif təbəqənin adamları idi: evdar qadınlar, məktəblilər, fəhlələr, kolxozçular, alimlər, yazıçılar, mühəndislər... Elə məktublar da var idi ki, onlara 200-300 adam imza atmışdı. Rahibin qəhrəmanlığı Azərbaycan və gürcü xalqlarını bir-birinə daha da mehribanlaşdırmış, yaxınlaşdırmışdı.

### Danışan sətirlər

Rahib Məmmədovun bir vaxtlar doğmalarına yazdığı məktublar oxuyanlarda böyük maraq doğururdu. Məktubların tarixinə diqqətlə fikir verəndə görürdük ki, Rahib evlərinə tez-tez məktub yazar, doğmalarının gözünü yolda qoymazmış. Yazılan bu məktublar onun xarakterinin açılmasına da güzgü tutur. Hiss olunur ki, Rahib ona ünvanlanan məktubların hamısına cavab yazıb, doğmalarının, əzizlərinin gözlərini yolda qoymayıb. Həmişə ailə qayğısı ilə yaşayıb, doğma ocaqlarının həsrətini çəkib. Qəhrəmanın yazdıqlarını oxuduqca sətirlər arasında gənc bir əsgərin, qayğıkeş bir oğulun, cəsur bir azərbaycanlı balasının ürək çırpınıları aydınca eşidilir.

*"Anama.*

*Vəziyyətim lap əladır Hələ ki, rus dilini o qədər də öyrənməmişəm. Hərbi hissədə azərbaycanlılar çox olduğundan rus dilində az danışırıq. Amma günlər keçdikcə yavaş-yavaş hər şeyi öyrənəcəm.*

*31.12.1986"*

* * *

*"Bacım Leylaya.*

*Yazın görüm yenə də Əşrəfin briqadasında işləyirsiniz? Yeni il bayramınızı təbrik edirəm. Mənim əvəzimdən hamını təbrik edib öpərsən.*

*15.01.1986"*

* * *

*"Atama, anama*

*Hərbi hissəmizə çoxlu təzə əsgər gəlib. Onlara zirehli texnikanı sürməyi öyrədirəm. Tez-tez BTR-lə Qara dənizdə üzürük. Suda texnikanı idarə etməyi öyrənmək çox maraqlıdır. Bunun ayrı ləzzəti var. Mən bu təlimlərdə lap fəal iştirak edirəm.*

*24.06.1986"*

"Qara dənizdə üzürük, texnikanı suda da idarə etməyi öyrənirik" sözləri diqqətimizi xüsusi olaraq cəlb etdi. Həmin günlərdə nə vaxtsa ömrünün sularda bitəcəyini heç ağlına gətirmirmiş. Təəssüflər olsun ki, ağlına gəlməyənlər cəsur əsgərin başına gəldi…

### Rahibin ölümü ilə yaşıd ağaclar

1990-cı ildə yaradılmış Rahib Məmmədov adına Muzeyə ziyarətə gələnlər həm onun, həm də doğma Qarabağımız uğrunda vuruşan oğulların şərəf dolu döyüş yolları ilə yaxından tanış olurlar. İgidlərin, qəhrəmanların döyüş yollarını öyrənirlər.

Muzeydəki eksponatlara baxandan sonra həyətə çıxdıq. Buradakı küknar ağaclarının üstünə vurulmuş kiçik lövhələr diqqətimizdən yayınmadı. Lövhələrə yazılanlara diqqət yetirəndə məlum oldu ki, bu ağacları 1987-ci ildə Gürcüstanın Çaladidi kəndindən qəhrəmanın adını daşıyan məktəbə gəlmiş Rahib Məmmədovun bir vaxtlar sel daşqınından xilas etdiyi 28 nəfər əkib. Lövhələrdə ağacları basdıranların ad-familiyaları və əkildiyi tarixlər qeyd olunub. Muzeyin həyətindəki ağaclar etibarlı qorunur. Bu da təbiidir. Çünki tarix üçün bir ağac da, bir daş parçası da qiymətlidir. 37 il əvvəl basdırılmış küknar ağaclarının həm gövdələri xeyli iriləşib, həm də boyları yuxarı qalxıb. Ətrafına kölgə salan bu ağaclar Rahibin ölümü ilə yaşıddır. Onlar səmaya doğru boy verdikcə sanki qəhrəmanın adını səmaya qaldırır, Aya, Günəşə, ulduzlara onun qəhrəmanlığından danışırlar.

Gürcü xalqı qəhrəmanımızın xatirəsini həmişə əziz tutur. Çaladidi kəndində Rahib Məmmədovun heykəli ucaldılıb. Ötən il oktyabrın 20-də onun heykəlinin açılış mərasimi keçirilib. Mərasimdə Gürcüstanın Zemo-Svaneti bölgə rəhbərliyi, Azərbaycanın Gürcüstandakı səfiri, Türkiyənin Batumi şəhərindəki baş konsulu, Rahib Məmmədovun ailə üzvləri, Gürcüstan və Azərbaycan ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Qorxmaz əsgər Rahib Məmmədovun qəhrəmanlığı heç vaxt unudulmur. Daim xatırlanır, anılır, yad edilir. Xalqımızın igid oğulları qəhrəmanlığı məhz Rahib kimi cəsurlardan öyrənirlər. 44 günlük Vətən müharibəsində biz bu oğulların erməni işğalçılarına qarşı necə böyük qəhrəmanlıqla, necə böyük igidliklə, necə böyük cəsarətlə döyüşdüyünü gördük. Xalqımız torpaqlarımızı erməni işğalçılarından azad etmiş Rahib Məmmədov kimi cəsur oğullarımızla fəxr edir. Fəxr etdiyimiz bu oğullar başda Rahib olmaqla cəsarətləri ilə tariximizin şanlı səhifələrində daim ucalıqlarda dayanan qəhrəmanlıq abidəsi qoydular...

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# Biz bütün tarixi torpaqlarımıza qayıdacağıq

**Qərbi Azərbaycan İcması respublikamızın kənd, qəsəbə və şəhərlərində, habelə xarici ölkələrdə Qərbi Azərbaycandan, eləcə də Qarabağ bölgəsindən öz dədə-baba yurdlarından didərgin salınmış, qaçqın, köçkün düşmüş insanların ailə üzvləri ilə görüşlər keçirir, onların pozulmuş hüquqlarını aidiyyəti beynəlxalq insan hüquqları müdafiəsi qurumlarına, habelə dünya ictimaiyyətinə çatdırır. İcma mütəmadi olaraq soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətlə geri qayıdışı istiqamətində aparılan işləri, o cümlədən maddi-mədəni irsimizin dağıdılmasına diqqət çəkilməsi məsələlərini gündəmdə saxlayır.**

İcmanın təşkilatçılığı ilə Bərdə, Tərtər, Sabirabad, Goranboy, Qazax, Şəmkir, Ağcabədi, Biləsuvar, Beyləqan, Gəncə, Naxçıvan və digər bölgələrdə əslən Qərbi Azərbaycandan olan qaçqınlarla görüşlər keçirilib. Sumqayıt şəhərində icmanın filialı yaradılıb. Belə görüşlər qərbi azərbaycanlı soydaşlarımızın məskunlaşdığı Şabran şəhərində, rayonun Taxtalar, Ağbaş, Xəlfələr və Yeləkəsən kəndlərində də keçirilib. Növbəti tədbir avqustun birinci ongünlüyündə rayonun ucqar Kilvar kəndində davam etdirilib. Tədbirdə ötən əsrin 80-ci illərinin sonlarında ermənilər tərəfindən Qərbi Azərbaycandan deportasiya olunaraq 30 ildən artıq bir müddətdə Şabranda məskunlaşmış məcburi qaçqınlar və onların ailə üzvləri torpaq, yurd həsrətinin bitəcəyi günü səbirsizliklə gözlədiklərini bildiriblər. Qərbi azərbaycanlı soydaşlarımız Ermənistan hökumətini beynəlxalq insan hüquqlarının öhdəliklərinə hörmət etməyə və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına şərait yaratmağa çağırıblar.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Qərbi Azərbaycanın böyük bir tarixi əraziyə malik olduğunu demişdir: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan şəhəri, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olub".

Xatırladaq ki, Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmasına baxmayaraq, ora köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıları öz doğma yurdlarından didərgin salmaq üçün himayədarlarının əli ilə özlərinin məkrli niyyətlərini həyata keçiriblər. Ermənilərin maraqlarına uyğun olaraq Qərbi Azərbaycandan bütün soydaşlarımız öz doğma ata-baba yurdlarından zorla çıxarılmış və onlar qaçqın halında Azərbaycanın bölgələrində məskunlaşmışlar. Odur ki, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində haqlı tələblərini bəzi ermənipərəst qüvvələr həzm edə bilmədiklərindən yalan və şantaja əl atırlar. Dünyanın diqqət mərkəzində olan qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışı Ermənistan hakimiyyətində ciddi narahatlığa səbəb olub. Bu mənada Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə sabiq xüsusi nümayəndəsi Toivo Klaarın bu yaxınlarda "JAM news" media resursuna müsahibə zamanı səsləndirdiyi fikirlər Azərbaycanda geniş narazılığa səbəb olmuşdu. Hətta Azərbaycan Xarici İşlər Nazirliyi bu xüsusda sərt açıqlama da vermişdi.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə sabiq xüsusi nümayəndəsi Toivo Klaarın bu kimi qərəzli açıqlamalar verməsi təəssüf doğurur, digər tərəfdən, təmsil etdiyi qurumun imicinə zərbədir. Maraqlıdır ki, Toivo Klaarın müsahibəsindəki bəzi məqamlar Ermənistanda da ciddi narazılıqla qarşılanıb. Müxalifyönlü "Ana Ermənistan" blokunun üzvü Boris Murazinın açıqlamaları da bunu təsdiq edir: "Klaar, digər məsələlərlə yanaşı, ermənilərin Qarabağa geri qayıtmasından da danışıb. O bir daha ümid etdiyini bildirib ki, düşmənçilik və zorakılıq səhifəsi, nəhayət, bütün bölgə əhalisinin, o cümlədən ermənilərin xeyrinə birdəfəlik bağlana bilər... Fikrincə, nizamlanma açıq yaraların olmaması deməkdir və ona görə də bu məsələ daha geniş sülh prosesinin bir hissəsi olmalıdır. Bəzən bu kontekstdə Qərbi Azərbaycan məsələsi kimi başqa məsələlər də qaldırılır. Onun üçün bunlar tamam fərqli məsələlərdir, eyni səviyyəyə qoyula bilməz. İlk baxışdan bu, balanslaşdırılmış bəyanatdır və narahat olmağa dəyməz, üstəlik, sadəlövh insanlar düşünə bilərlər ki, avropalı məmur ermənilərin hüquqları ilə bağlı məsələ qaldırır. Amma bu, ilk baxışdan belədir və yalnız sadəlövh insanlar üçündür". Murazi onu da bildirib ki, Qərb Ermənistandan bir neçə yüz min azərbaycanlını qəbul etməyi tələb edir.

Görünən odur ki, Qərbi Azərbaycan məsələsi tədricən dünyada qəbul edilir və bu da Ermənistanda ciddi narahatlıq yaradır. Xatırladaq ki, Birinci Dünya müharibəsindən, Rusiyada 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olublar. 1918-ci ildə haylar öz havadarlarının köməyi ilə İrəvan şəhərində, Göyçə mahalında, Varantsovkada, Zəngəzurda, Dərələyzdə, Vedibasarda və digər azərbaycanlılar yaşayan ərazilərdə anoloqu olmayan vəhşiliklər törətmişlər. Bu qanlı cinayətlərə dəstək verən isə Stepan Şaumyan idi. Zaqfqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrdə azırbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə erməni şovinistləri yeni vasitələrə əl atdılar.

Haylar soydaşlarımızın Qərbi Azərbaycandan 1905-1906, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə mərhələli və kütləvi şəkildə qovulmasına nail olublar. 1991-ci ilə qədər Qərbi Azərbaycanda ərazi toponimlərinin 90 faizindən çoxunu türk mənşəli adlar təşkil edib. İndiki Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adlarının və digər toponimlərin dəyişdirilməsi prosesinə ilk dəfə 1919-cu ildə Azərbaycan ərazisində erməni dövləti yaradıldıqdan dərhal sonra Ermənistan hökumətinin qərarı ilə başlanılıb. Sonrakı dövrlərdə azərbaycanlılara məxsus tarixi adların dəyişdirilməsi prosesi daha da sürətləndirilərək kütləvi miqyas alıb. Bu məsələlər haqqında danışarkən prezident İlham Əliyev qeyd edib: "Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan, əslində, Azərbaycanın tarixi torpağıdır. Ona görə, gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq".

Zorla didərgin salınmış dədə-baba yurdlarına geri qayıtmaq hər bir soydaşımızın haqqıdır. Yüz minlərlə soydaşımızın Qərbi Azərbaycana qayıdışı qaçılmaz prosesdir. Bu məqsədə çatmaq üçün beynəlxalq hüququn imkanlarından da maksimum faydalanmağa xüsusi diqqət yetirilir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Keçmiş məcburi köçkünlər mina təhlükəsi ilə bağlı maarifləndirilir

**Biləsuvar rayonu ərazisində Cəbrayıl rayonundan olan keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları 6 saylı qəsəbədə və Bərdə rayonunda 588 keçmiş məcburi köçkün ailəsi üçün salınmış qəsəbədə mina təhlükəsinə dair "Risklər barədə maarifləndirmə və təhlükəsiz davranış" mövzusunda təlim keçirilib.**

Təlim Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) əməkdaşlığı çərçivəsində təşkil edilib. "Qaçqınkom"dan AZƏRTAC-a bildirilib ki, AzQAC-ın mütəxəssis və könüllülərindən ibarət heyət tərəfindən "Qapı-qapı" formatında keçirilən təlimlərin əsas məqsədi işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində geri qayıdacaq sakinlər arasında mina və partlamamış hərbi sursatlarla (PHS) bağlı məlumatlılığı artırmaq, mümkün risk amilini minimuma endirməkdir. Təlimçilər hər bir evə və mənzilə gedərək sakinlərə zəruri məlumatlar verib, onların suallarını cavablandırıblar.

Təlimlər zamanı qadağanedici, xəbərdaredici və məlumatlandırıcı nişanlar, təhlükə zamanı müraciət edilə biləcək dövlət qurumları və əlaqə vasitələri barədə ətraflı məlumatlar verilib, maarifləndirici broşürlər paylanılıb. Ümumilikdə gün ərzində Bərdə və Biləsuvar rayonlarında 2000-dən çox məcburi köçkün maarifləndirilib.

Xatırladaq ki, bunadək təlimlər mərhələli şəkildə Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu Park" yaşayış kompleksində, həmçinin yataqxanalarda, inzibati binalarda və yarımtikililərdə müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlər, Füzuli şəhərinə yeni köçürülmüş sakinlər üçün təşkil edilib.

Mina və PHS təhlükəsi ilə bağlı bu ilin avqustunadək keçirilən maarifləndirici təlimlərə 23 mindən çox məcburi köçkün cəlb olunub. Təlimlərin keçmiş məcburi köçkünlərin sıx məskunlaşdıqları digər ərazilərdə silsilə şəklində davam etdirilməsi nəzərdə tutulur.

# Koçaryan Paşinyana qarşı çevrilişə hazırlaşır

**Ermənistan siyasi sferasında son günlərdə cərəyan edən proseslər Nikol Paşinyan və müxalifət arasında münasibətlərin daha kəskin xarakter alacağını göstərir.**



Belə görünür ki, qarşıdakı ayda ölkədə ictimai-siyasi gərginlik daha da artacaq. Çünki keşiş Baqrat Qalstanyanın planlaşdırdığı etiraz aksiyaları fonunda vətəndaş müharibəsinə hazırlıqlar nəzərlərdən yayınmır. Vəziyyəti gərginləşdirən başqa bir səbəb isə Paşinyana qarşı olan separatçıların bir qisminin sabiq prezident Robert Koçaryanın ətrafında birləşməsi, sonuncunun isə yenidən hakimiyyətə iddialı olmasıdır.

"4rd.am" nəşrinin yazdığına görə, ölkənin əsas müxalifət partiyasının - Hayastan fraksiyasının deputatı Kristine Vartanyan bildirib ki, təşkilat keşiş Baqrat Qalstanyanın antihökumət hərəkatına sadiq qalır. Keçmiş prezident Robert Koçaryanın Hayastan fraksiyası Qalstanyanın planlaşdırdığı etiraz aksiyalarını dəstəkləyəcək.

O da vurğulanır ki, Vartanyan və Hayastan fraksiyasının başqa nümayəndələri ötən həftə İrəvan yaxınlığındakı istirahət mərkəzlərindən birində görüşərək gələcəkdə atılacaq addımları müzakirə ediblər. Koçaryanın iki gün davam edən bu tədbirdə iştirak etdiyi bildirilir.

Vartanyan onu da əlavə edib ki, son iki ildə çox nadir hallarda bəyanatlar səsləndirən keçmiş prezident bu xüsusda heç bir tapşırıq verməyib və tərəfdarları ilə yalnız fikir mübadiləsi aparıb: "Bizim konsensusa əsaslanan yanaşmamız hazırda əlimizdə olan vasitələrdən mümkün qədər fəal istifadə etməkdir. Belə vasitələrdən biri də keşiş Qalstanyanın yeni aksiyalarına dəstək verilməsidir".

Lakin təhlillər onun da Hayastan əhalisi tərəfindən dəstəklənmədiyini göstərir. Xüsusən də Koçaryanın revanşist mövqeyi, Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasının tərəfdarı olması, 1999-cu ildə Hayastan parlamentində baş verən terror aktında, 2008-ci ilin martında əhaliyə qarşı yol verilən qırğında, çoxsaylı korrupsiya və digər cinayətlərdə əli olması fonunda cəmiyyətin mütləq əksəriyyəti ona nifrət edir. Erməni mediası onu satqınçılıqda, ölkəni vassala çevirməkdə də ittiham edir.

Son hadisələrdən sonra baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolu kimi onu devirməkdə görsələr də, bunun məsuliyyətini üzərilərinə götürmək istəmirlər. Özünü müxalif kimi təqdim edən Koçaryan-Sarkisyan koalisiyası isə hələ də konseptual strategiya ortaya qoya bilməyib.

Bununla yanaşı, ölkədə yaranan böhranlı vəziyyət insanları hakimiyyət barədə daha pessimist düşünməyə vadar edir. Çıxılmaz duruma düşməyin yaratdığı duyğular, Hayastanın perspektivinə inanmamaq artıq dayanıqlı şəkil alır. Bu da insanların davranışına və əhvali-ruhiyyəsinə təsir edir. Böhran Hayastanda həyatın bütün sahələrini ağuşuna alıb. Yalnız iqtisadi sferada baş verənlər vəziyyətin nə qədər acınacaqlı olduğunu göstərir.

Beləliklə, regionda baş verən son hadisələr fonunda siyasi dairələr də yaxşı dərk edirlər ki, mövcud vəziyyət Hayastanın xilası üçün bəlkə də son şansdır və bunu maksimum şəkildə dəyərləndirmək lazımdır. Belə bir fikir formalaşıb ki, sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda İrəvan üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan - Moldova əməkdaşlığının inkişafı və zənginləşməsi üçün yaxşı imkanlar var
Moldova Respublikasının Prezidenti zati-alıləri xanım Maya Sandu
Strateji tərəfdaşlıq güclənir, qlobal nüfuz artır
Azərbaycanın müttəfiqlərinin coğrafiyası genişlənir
Mehriban Əliyeva həmvətənləri arasında və xaricdə yüksək nüfuza malikdir
Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya
Fransa demokratiya yox, repressiyalar ölkəsidir
Müstəqil siyasət, etibarlı tərəfdaş, ləyaqətli ölkə
Uğurlu xarici siyasət ölkəmizin qlobal imicini möhkəmləndirir
Sürətin 8-ci zirvəsi
Bakı növbəti "Formula-1"ə hazırlaşır
Palçığın vulkan möcüzəsi
Azərbaycan təbiətinin bu nadir incisi xarici turistləri də heyran edir
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Rusiyada təhsil alan azərbaycanlı tələbələr "AMOR Əlaçı Təqaüdü"nü qazanıblar

**Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (AMOR) fəxri sədri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "AMOR Əlaçı Təqaüdü" müsabiqəsində bu il 19 azərbaycanlı tələbə qalib gəlib.**




AZƏRTAC xəbər verir ki, təhsildə fərqlənən tələbələrə hərtərəfli dəstək və qayğı göstərmək, gənclərin təhsilə marağını artırmaq məqsədilə təşkil olunan müsabiqə 2009-cu ildən etibarən uğurla həyata keçirilir və bu günədək 453 tələbəni əhatə edib.

Müsabiqə çərçivəsində Rusiya Federasiyasının ali təhsil müəssisələrində təhsil alan əlaçı azərbaycanlı tələbələrə təhsil xərclərinin qarşılanması üçün maliyyə dəstəyi göstərilir.

Xatırladaq ki, AMOR Rusiya Federasiyasında yaşayan azərbaycanlı gənclərin vahid təşkilatda birləşməsi, onların sosial sahədə, yaradıcılıq və təhsil istiqamətlərində təşəbbüslərinin dəstəklənməsi məqsədilə 2009-cu ildə Leyla Əliyevanın təşəbbüsü ilə yaradılıb.

# Makronun yalanı ifşa edildi

## Pavel Durovu Fransaya dəvət edən prezident görüşmədən onu həbs etdirib

**Fransa "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippo "X" sosial şəbəkəsində sərt bəyanat dərc edərək prezident Emmanuel Makronun hərəkətlərindən qəzəbləndiyini bildirib.**



Buna səbəb "Le Canard Enchaine" qəzetində işıq üzü görən məqalədir. Nəşr yazır ki, teleqramın təsisçisi Pavel Durovun həbsi əvvəlcədən planlaşdırılıb. Çünki Pavel Durov həbs olunduğu gün polisə deyib ki, prezident Emmanuel Makronla nahar etməyi planlaşdırdırıblar...

Ehtimal olunur ki, Durov nahar masası arxasında Makronla görüşmək və anlaşmaq üçün Parislə danışıqlar aparıb. Məhz bundan sonra Fransaya uçmaq qərarına gəlib. Amma Paris bu fürsətdən onu tora salmaq üçün məharətlə istifadə edib.

Məhz buna görə də Filippo sosial şəbəkədəki paylaşımında təəccüblə soruşur: "Makron doğrudanmı Pavel Durovu saxlayıb?!"

O, prezidenti mümkün saxtakarlıqda ittiham edərək, Makronun bu hərəkətlərinin, bütün azad söz müdafiəçilərinin həbs etmək istəyən xarici qüvvələrin göstərişi ilə həyata keçirilən missiyanın bir hissəsi ola biləcəyini vurğulayıb.

"Vətənpərvərlər"in lideri israr edir ki, Makron bu hadisə ilə bağlı izahat verməlidir.

Qeyd edək ki, Yelisey sarayı Fransada saxlanılan teleqramın təsisçisinin polisə dediyi sözləri təkzib edib. Fransa polisi "Röyter" agentliyinə bildirib ki, iş adamı teleqramda kiber və maliyyə cinayətləri məsələlərində əməkdaşlıqdan imtina etməkdə ittiham olunur. Onlar əlavə ediblər ki, Durovun işi milli kibercinayətkarlıq və fırıldaqçılıqla mübarizə idarələri tərəfindən araşdırılır. Prokurorluq bildirib ki, Durov 12 cinayətdə ittiham olunan "adı açıqlanmayan şəxs"lə bağlı aparılan istintaq çərçivəsində dindirilir.

Bu hadisə əslində Makronun nəyə qadir olduğunu nümayiş etdirir və onun çirkin əməllərinə çatması yolunda hər cür yalan, hiylə və iftiraya əl atdığını göstərir. Emmanuel Makronun siyasətinin mahiyyəti məhz budur.

Bu arada, Fransanın yeni baş nazirinin təyin olunması ilə bağlı bütün siyasi qüvvələrin liderləri ilə məsləhətləşmələrdən sonra Yelisey sarayı kommünike yayıb. Orada Makronun partiya liderləri və parlamentin hər iki palatasının prezidentləri ilə "fikir mübadiləsi"nin "səmimi və faydalı" olduğu bildirilib. Məsləhətləşmələrdən sonra Yelisey rəsmi olaraq təsdiqləyib ki, Makron solçu hökumət variantını rədd edib.

Digər siyasi qüvvələrin təkliflərini də qısa şəkildə təsvir edən Yelisey sarayı elan edib: "Çərşənbə axşamı partiya liderləri, dövlətə xidmət təcrübəsi olan aparıcı şəxslər ilə məsləhətləşmələrin yeni mərhələsi başlayacaq. Fransa xalqının gözləntilərinin böyük olduğu Beşinci Respublika üçün misli görünməmiş bu məqamda dövlət başçısı bütün siyasi liderləri məsuliyyət ruhu nümayiş etdirməyə çağırır".

Ümumilikdə isə Makron özünün yaratdığı xaosdan çıxış yolu tapa bilmir və çətinliklərlə üzləşib. O, konstitusiyaya əməl olunmasını, dövlət hakimiyyəti orqanlarının müntəzəm fəaliyyətini, eləcə də dövlətin davamlılığını təmin etməlidir. Bugünkü siyasi vəziyyətdə Makron dövləti idarə edə bilmək üçün alternativ əksəriyyət tapmalıdır.

Bu arada, amerikalı sahibkar İlon Mask Teleqram təsisçisinin həbsi ilə bağlı Fransa prezidenti Emmanuel Makrona müraciət edib. "X" sosial şəbəkəsində dərc olunan mesajda Prezidentin insanlara həbsin səbəblərini izah etməsi istənilib. Mask yazıb ki, Durovun niyə həbs edildiyi barədə dünya ictimaiyyətinin daha ətraflı məlumat əldə etməsi faydalı olardı.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Naxçıvanda ilk dəfə "MEDİA könüllüləri" proqramına start verilib

**Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsi media sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələr çərçivəsində gənclərin potensialından daha səmərəli istifadə etmək, onların fərdi və peşəkar inkişafına şərait yaratmaq, media sahəsində gənclərin fəal iştirakını və yaradıcı-innovativ potensialını stimullaşdırmaq, eyni zamanda ölkədə könüllülük hərəkatına dəstək olmaq məqsədi ilə "MEDİA könüllüləri" proqramına qeydiyyat elan edir.**




AZƏRTAC xəbər verir ki, proqram müddətində könüllülərin nəzəri və təcrübi biliklər qazanması üçün regional idarənin müvafiq struktur bölmələrində, həmçinin müxtəlif media subyektlərində təşkil ediləcək təcrübə proqramlarında, təlim və layihələrdə iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, MEDİA könüllüsü 18-29 yaşarası gənclər ola bilərlər. "MEDİA könüllüləri" proqramı 3 ay müddətində davam edəcək. Könüllülük fəaliyyətini uğurla başa çatdırıb və öz öhdəliklərini yerinə yetirən könüllülər proqramın sonunda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsi tərəfindən sertifikatla təltif olunacaqlar. Müraciət üçün son qeydiyyat tarixi 10 sentyabrdır.

# BRICS sammiti ərəfəsində Kazanda caz festivalı keçiriləcək

**Kazanda keçiriləcək BRICS sammiti ərəfəsində təşkil olunacaq caz festivalı dünyanın müxtəlif ölkələrindən 200-dən çox musiqiçini bir araya gətirəcək. Festivalın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iştirakçılar arasında Rusiya, Türkiyə, Efiopiya, Çin, Hindistan, Braziliya, Kuba, İran və başqa ölkələrin nümayəndələri olacaq.**

Mətbuat xidməti qeyd edib: "Avqustun 28-dən 30-dək Kazanda "Diksiland Konqresi və BRICS ölkələrinin etno-caz ansamblları" beynəlxalq festivalı keçiriləcək. Üç gün ərzində şəhər genişmiqyaslı konsert məkanına çevriləcək, burada 22 qrupda 200-dən çox rus və xarici ifaçı çıxış edəcək, həmçinin caz filmləri nümayiş etdiriləcək və musiqi paradı olacaq. Tədbir Rusiyanın oktyabrda Tatarıstan paytaxtında keçiriləcək XVI BRICS sammiti ərəfəsində keçirilir. Caz festivalı ilk dəfə olaraq forumun proqramına daxil ediləcək və bir neçə min tamaşaçını, o cümlədən iştirakçı ölkələrin diplomatik korpuslarının rəhbərlərini bir araya gətirəcək".

Qeyd edək ki, layihə Rusiya Xarici İşlər Nazirliyi tərəfindən "Rusiya Federasiyasının 2024-cü ildə sədrliyi dövründə BRICS platforması çərçivəsində Fəaliyyət Planı"na daxil edilib.

BRICS assosiasiyası 2006-cı ildə Rusiya, Çin, Hindistan və Braziliya tərəfindən yaradılıb. 2011-ci ildə Cənubi Afrika, 2024-cü ildə isə Misir, İran, BƏƏ, Səudiyyə Ərəbistanı və Efiopiya bu birliyə qoşulub. Bu yaxınlarda Azərbaycan da BRICS-ə üzv olmaq üçün ərizə verib.

# Gənc Tamaşaçılar Teatrı yeni teatr mövsümünə hazırlaşır

**Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı 97-ci mövsümünü sentyabrın 21-də açacaq.**



AZƏRTAC xəbər verir ki, gündüz seansında teatrın balacalar üçün hazırladığı "Qaraca qız" (quruluşçu rejissor Cənnət Səlimova), axşam isə "Fiqaronun toyu" (Nicat Kazımov) göstəriləcək. İlin sonunadək nəzərdə tutulan plana görə, yazıçı-dramaturq İlqar Fəhminin "Şahnamə" dramı əsasında eyniadlı tamaşa hazırlanacaq. Səhnə əsərinə Əməkdar artist Nicat Kazımov quruluş verəcək.

Bundan başqa, uşaqlar üçün Mirmehdi Seyidzadənin "Cırtdan" mənzum nağılı əsasında eyniadlı tamaşa hazırlanacaq. Səhnə işini Elşad Rəhimzadə ərsəyə gətirəcək.

Hələ ötən mövsümdə səhnə oxunuşlarına başlanılan "Mən Feyerbaxam" adlı monotamaşa da ilin sonunadək teatrsevərlərə təqdim olunacaq. Əsasən festival üçün nəzərdə tutulan tamaşa alman dramaturqu Tankert Dorstun eyniadlı pyesi əsasında hazırlanır. Nümunənin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Monotamaşada Əməkdar artist Şövqi Hüseynov oynayacaq.

# Bu gün ölkə ərazisində hava yağmursuz keçəcək

Azərbaycanda avqustun 29-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-26° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 34-38° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-26° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin katibliyinin rəis müavini Mehdi Dadaşova dayısı

**AYDIN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin katibliyinin rəisinin müavini Mehdi Dadaşova dayısı

**AYDIN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4011**
**Sifariş 1918**

**Qiyməti 60 qəpik**